**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SƏFƏVİLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN XALQININ MƏNƏVİ MƏDƏNİYYƏTİ (ETNOQRAFİK TƏDQİQAT)

İxtisas: 5102.01 – Etnoqrafiya və etnologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Əsgər Sücayət oğlu Əhməd**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya Etnoqrafiya və Antropologiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru
**Qadir İbrahim oğlu Qədirzadə**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

antropologiya elmləri doktoru, professor
**Əliağa Əyyub oğlu Məmmədli**

tarix elmləri doktoru, professor
**Oljobay Kubatbekoviç Karatayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir xalqın tarixi-mədəni irsi, milli-mənəvi dəyərləri onun mirasıdır, yaddaşıdır. Bu irsi ciddi şəkildə tədqiq edib ona sahib durmaq, dəyər vermək, onu layiqincə təqdim və təmsil etmək isə həmişə millət adına görülmüş ən dəyərli və əhəmiyyətli fəaliyyət kimi qiymətləndirilmişdir. Bizcə, bu gün də başda tarixçilər, etnoqraflar, kulturoloqlar, siyasətşünaslar olmaqla digər elm sahələrində çalışan tədqiqatçılarımızın ümdə vəzifələrindən biri, minilliklərdən günümüzə qədər keçib gələn tarixi-mədəni irsimizi və dəyərlərimizi qorumaq, onun həmişəyaşarlığını təmin etmək, eləcə də onu lazımi səviyyədə araşdırmaqdan, təqdim və təbliğ edə bilməkdən ibarətdir. Bu, tariximizi saxtalaşdıranlara və özününküləşdirənlərə qarşı da tutarlı bir cavab olardı. Eyni zamanda xalqımızın müsbət imicinin formalaşmasında bu amilin mühüm rol oynadığı da diqqətə alınmalıdır.

Azərbaycan tarixinin ictimai-siyasi, iqtisadi və mədəni inkişafı ilə fərqlənən çox mühüm dövrlərdən birini Qızılbaş-səfəvilərin hakimiyyətdə olduğu illər təşkil edir. Bu dövrün mədəni irsinin, o cümlədən, onun mənəvi həyatının bir sıra mühüm aspektlərinin tarixi-etnoqrafik baxımından araşdırılması günümüzün tələblərindən olub, mühüm əhəmiyyət kəsb edir. Bu cür araşdırmalar bizə imkan verir ki, mənəvi mədəniyyət tariximizin müxtəlif mərhələləri arasında əlaqələri izləyək, onların oxşar və fərqli cəhətlərini aşkara çıxaraq, bir sıra adət və ənənələrimizin, bayramlarımızın, ayin və mərasimlərimizin, oyun və əyləncələrimizin, elm və təhsil sistemimizin, folklorumuzun, ədəbiyyatımızın, incəsənətimizin və digər humanitar fəaliyyət sahələrimizin inkişaf dinamikasını və özünəməxsus cəhətlərini müəyyənləşdirək.

Tədqiqat obyekti kimi tarixi-etnoqrafik baxımdan araşdırmaya cəlb etdiyimiz Səfəvilər dövrü Azərbaycan xalqının mənəvi mədəniyyətinin öyrənilməsi, Səfəvi cəmiyyətinin mənəvi həyatında baş verən təbəddülatların təhlili və inkişaf meyillərinin izlənilməsi, eləcə də göstərilən dövr insanının düşüncə standartlarını, mənəvi tələbatlarını, yaşam tərzini, adət-ənənələrini və sair öyrənmək baxımından da əhəmiyyətlidir.

235 il varlığını sürdürmüş, Azərbaycanın və bölgənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayan Azərbaycan Səfəvilər dövləti, zamanında dünyanın ən güclü və böyük imperiyalarından biri olmaqla, xalqımızın tarixində çox önəmli bir yerə sahibdir. Görkəmli səfəvişünas alim O.Əfəndiyev bu dövlətin Azərbaycan xalqının tarixində oynadığı rola toxunarkən haqlı olaraq yazır: *"Səfəvilər dövlətinin tarixi Azərbaycan xalqının tarixi, onun sonrakı etnik konsolidasiyası ilə qırılmaz surətdə bağlıdır. Azərbaycanın cənub və şimal vilayətlərinin Səfəvilər dövlətinin vahid, nisbətən mərkəzləşdirilmiş hüdudları daxilində birləşdirilməsi, bu vilayətlərin keçmişə nisbətən daha sıx siyasi, iqtisadi, mədəni və etnik inteqrasiyasına zəmin yaratmışdı. Onilliklər boyu davam etmiş feodal pərakəndəliyindən sonra Azərbaycan XVI əsrdə yenidən özünün dövlət bütövlüyünü əldə etmiş, iqtisadiyyat və mədəniyyət sahəsində müəyyən tərəqqiyə nail olmuşdu"*[1]. Bu dövləti yaradan, onun təsirini bölgəyə yayan Azərbaycan türkləri olmuşdur. Məhz Səfəvilərin atdıqları addımlar sayəsində Azərbaycan (türk) dili orta əsrlərdə ilk dəfə olaraq dövlətlərarası yazışma və sarayda danışılan dil səviyyəsinə yüksələrək, ölkənin hər tərəfində istifadə olunan bir hala gəlmişdi. Səfəvi dövrü bizi əhatə edən coğrafiyada türk təsirinin ən çox hiss edildiyi bir dövrdür[2].

Səfəvi dövlətinin yaranması həm də İslam dövlətçilik tarixinə bir sıra yenilik və fərqliliklərin gətirilməsi ilə yadda qaldı. İslam dövlətçilik tarixində ilk dəfə Səfəvilərin şəxsində bir sufi təriqəti siyasiləşərək hakimiyyətə yiyələnə bildi. Səfəvi şahları bir təriqət rəhbəri olmaqla bərabər, həm də yaratdıqları siyasi təsisatın başında dayanan şəxslər idi. Onlar həm siyasi, həm də dini hakimiyyəti təmsil edirdilər. Bu dövlətin formalaşmasında türkmən dindarlığı və döyüşkənliyinin Səfəvi sufiliyi ilə sintezi əsasında yaranmış Qızılbaşlıq ideologiyası mühüm rol oynamışdı.

---

[1] Əfəndiyev O.Azərbaycan Səfəvilər dövləti / O.Əfəndiyev. – Bakı: "Şərq-Qərb", - 2007. s.4

[2] Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı /T.C.Ankara Üniversitesi Sosyal Bilmmler Enstitüsü Tarih (Genel Türk Tarihi) Ana Bilim Dalı, doktora tezi. - Ankara, 2011.s.2

Şiəliyin yenidən dirçəldilməsi, onun Səfəvi dövləti kimi orta əsrlərin nüfuzlu bir dövlətinin hakim dini ideologiyasına çevrilməsi və bölgədə yayılması, möhkəmlənməsi də Səfəvilərin xidmətidir. Ənənəvi olaraq müxalif durumda olan və daim aşağılanan, təzyiqlərə məruz qalan şiəlik, məhz Səfəvilərin sayəsində dövlət siyasətinə gətirilərək bölgənin dini və ictimai-siyasi həyatında mühüm rol oynamağa başladı.

Mərkəzləşdirilimiş güclü dövlətin yaranması ölkənin təsərrüfat həyatının dirçəlməsinə və inkişafına böyük təkan vermiş, beynəlxalq əlaqələr, o cümlədən ticari-iqtisadi əlaqələr genişlənmiş, müxtəlif sənət sahələri və şəhərlər inkişaf yoluna qədəm qoymuşdu. Yaranmış əlverişli şərait bütövlükdə mədəni həyatın, o cümlədən mənəvi mədəniyyətin də inkişaf etməsinə mühüm təsir göstərirdi. Xüsusilə də elmdə (tibb, astronomiya, tarix, fəlsəfə və s.), memarlıqda, bədii kitab tərtibatında, miniatür və xalçaçılıq sənəti, bədii yaradıcılıq və digər bir çox sahələrdə böyük yüksəliş əldə edildi.

Səfəvilər dövrü mənəvi mədəniyyət məsələlərinin tədqiqini aktual edən vacib məqamlardan biri də problemin ilk dəfə tarixi-etnoqrafik baxımdan kompleks şəkildə araşdırmaya cəlb edilməsi ilə bağlıdır. Qeyd edək ki, indiyə kimi dövrün mənəvi mədəniyyəti ilə bağlı məsələlər daha çox kulturoloqlar, filoloqlar, folklorşünaslar, sənətşünaslar və başqaları tərəfindən tədqiq edilmişdir. Ölkə xaricində aparılan tədqiqatların böyük əksəriyyətində isə məsələlərə korporativ maraqlar prinsipindən yanaşılmış və daha çox İran (fars-ari) xalqının mənafeləri baxımından təqdim olunmağa çalışılmışdır. Ona görə də Səfəvilər dövrünün etnoqrafiyasının, o cümlədən dövrün mənəvi mədəniyyət məsələlərinin tədqiq edilməsi, Azərbaycan etnoqrafiya elminin qarşısında duran çox mühüm və aktual problemlərdəndir.

Səfəvilər dövrü mənəvi mədəniyyət məsələlərinin etnoqrafik tədqiqində üçcildlik “Azərbaycan etnoqrafiyası” əsəri, xüsusilə də onun III cildi[3], yeddi cildlik “Azərbaycan tarixi”nin III cildi[4] tədqiqat

---

[3] Azərbaycan etnoqrafiyası (3 cilddə) / Baş red. T.Bünyadov. - Bakı: "Şərq-Qərb", - c. 3. – 2007.

[4] Azərbaycan tarixi XIII-XVIII əsrlər: (7 cilddə) / məsul redaktor O. Əfəndiyev. - Bakı: Elm, - c. 3 .- 2007

işinin metodoloji istiqamətinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

Səfəvilər dövrünün müxtəlif aspektlərdən, o cümlədən mənəvi mədəniyyət problemləri baxımından öyrənilməsində O.Əfəndiyevin araşdırmalarının mühüm rolu vardır. O.Əfəndiyev Azərbaycan Səfəvi dövləti ilə bağlı məsələləri dərindən araşdıran, məsələlərə konseptual yanaşma tərzi ilə fərqlənən və bu dövlətin Azərbaycan xalqının həyatında, onun mədəni yüksəlişində və etnik konsolidasiyasında, eləcə də dövlətçilik ənənələrinin güclənməsində oynadığı rolu düzgün qiymətləndirə bilən ilk səfəvişünas alimlərimizdəndir. Onun qələmə aldığı bir sıra əsərlərində, o cümlədən "Azərbaycan Səfəvilər dövləti", yenə onun "Образование Азербайджанского государства Сефевидов в XVI веке"[5] adlı əsərlərində Səfəvilərə dair ayrı-ayrı məsələlər ilkin mənbələr əsasında araşdırılmış və dərin təhlillər aparılaraq obyektiv nəticələrə gəlinmişdir. Tarixçi alimin Səfəvilərin tarixi ilə bağlı irəli sürdüyü bir sıra müddəalar bu gün də aktuallığını itirmir və müasir səfəvişünasların da böyük əksəriyyətinin söykəndiyi və istinad etdiyi əsas mənbələrdəndir. Müəllifin əsərlərində araşdırdığımız problemlə bağlı da bir sıra məsələlər, o cümlədən Səfəvi təriqətinin yaranması, onun başlıca ideyaları, Qızılbaş kimliyi və Qızılbaş hərəkatı, onların inanclarının özəllikləri, Şah İsmayıl başda olmaqla Səfəvi şahlarının şiəliyin bir məzhəb kimi oturuşması və yayılması yönündə apardıqları fəaliyyətlər, mühacir üləma, ayrı-ayrı din xadimləri və s. ilə bağlı məsələlər öz əksini tapır.

Görkəmli tarixçi alim S.Əliyarovun da əsərlərində Səfəvi dövrü mənəvi mədəniyyət elementlərinə, xüsusilə də Qızılbaş ideologiyasına və bu ideologiyanın formalaşmasına təsir göstərən elementlər haqqında mühüm məlumatlara rast gəlirik. Onun redaktorluğu və bir sıra bölmələrə müəllifliyi ilə ərsəyə gələn "Azərbaycan tarixi. Uzaq

---

[5] Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti / O.Əfəndiyev. – Bakı: "Şərq-Qərb", - 2007, yenə onun, Образование Азербайджанского государства Сефевидов в XVI веке / О.Эфендиев, - Баку, Изд-во АН Азерб. ССР, - 1961

keçmişdən 1870-ci illərə qədər”[6] adlı dərslik bu baxımdan əhəmiyyətlidir. Bu kitabda yer alan “Səfəvilərin hakimiyyətə gəlməsində sosial-siyasi bidətçiliyin yeri. Qızılbaş təlimi” adlı bölümdə S.Əliyarov Şah Xətai yaradıcılığına və dövrün mənbələrinə söykənərək Səfəviləri hakimiyyətə daşıyan Qızılbaş təliminin formalaşmasına təsir edən vacib elementlərdən, eləcə də bu hərəkatın sosial bazasından və onun hərəkətverici qüvvəlindən geniş söhbət açır. Müəllif Səfəvi dövlətinin qurulmasını *“Azərbaycan və bəzi qonşu ölkələri bürümüş Qızılbaş hərəkatı”* ilə bağlayaraq bu qənaətə gəlir ki, *“... hərəkat ideoloji baxımdan, şahlıq uğrunda mübarizə üçün, uyğunlaşdırılmış şiəlik bidətçiliyi bayrağı altında çıxış etmişdi”*[7]. Xüsusilə də müəllifin “Tariximiz açıqlanmamış mövzulari ilə”[8] adlı kitabında yer almış “Azərbaycanda bidətçilik hərəkatına dair ədəbi qaynaqların araşdırma təcrübəsindən” adlı yazısı bizim apardığımız etnoqrafik tədqiqat baxımından çox əhəmiyyətlidir. Qeyd olunan yazıda Nəsimi və Xətai yaradıcılığı əsasında Qızılbaş hərəkatı, onun ideya əsasları və şiəlik məzhəbindəki ifrat meyllər, qazilik, gəzərgi dərvişlər, “yol və hal adamı” olan abdal və qələndərlər, eləcə də əxiliyin bir sıra xüsusiyyətləri ətraflı şəkildə şərh edilir.

Orta əsrlər, o cümlədən də Səfəvilər dövrü Azərbaycan xalqının mənəvi mədəniyyət problemlərinin tədqiqində M.Dadaşzadənin “Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti”[9] adlı əsəri xüsusisi əhəmiyyətə malikdir. Əsərdə xalq bayramlarının, o cümlədən novruz bayramının mənşəyi, keçirilmə özəllikləri, oyun və əyləncələr, xüsusilə də çövkən oyunu, şatırlar, ovçuluq və s. ilə bağlı Səfəvi dövrünü də əhatə edən zəngin məlumatlara rast gəlmək mümkündür.

Azərbaycanın mədəniyyət tarixi ilə bağlı bir sıra araşdırmaların müəllifi olan X.Qasımovun əsərlərində, o cümlədən onun “Orta

---

[6] Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər) / Prof. S.S.Əliyarlının redaktəsi ilə. - Bakı: Çıraq, - 2009

[7] Əliyarov S. Göstərilən əsəri, s.368.

[8] Əliyarlı S. Tariximiz açıqlanmamış mövzuları ilə / S.Əliyarlı. - Bakı: Mütərcim, - 2012.

[9] Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti / M.Dadaşzadə. - Bakı: Elm, - 1985.

əsrlərdə Azərbaycan mədəniyyəti”[10] adlı monoqrafiyasında da bəhs etdiyimiz dövrün mənəvi mədəniyyətinə dair bir çox məsələlər öz əksini tapmışdır.

Dövrün xalq və dini bayramları ilə bağlı məsələlərin araşdırılmasında “Azərbaycan Etnoqrafiyası”nın III cildi mühüm əhəmiyyətə malikdir[11]. Bu cilddə istər Novruz, istərsə də “Qurban” və “Ramazan” kimi bayramlarla bağlı zəngin materiallar öz əksini tapmışdır. Novruz bayramı ilə bağlı məsələlərin araşdırılmasında B.Abdulla və T.Babayev tərəfindən ərsəyə gətirilən “Novruz bayramının ensiklopediyası”nın[12] əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Əsərdə Novruz bayramının bir sıra məqamları ilə bağlı dolğun məlumatlar yer alır. Novruz bayramının müxtəlif aspektləri ilə bağlı məsələlər, eyni zamanda A.M.Çayın[13], G.Yoloğlunun[14], R.Allahverdinin[15], İ.İmamverdiyevin[16], X.Ağaverdinin[17], H.Aziminin[18], F.Bayatın[19] adlı araşdırmalarında geniş şəkildə

---

[10] Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti / X.Qasımov. - Bakı: Aspoliqraf, - 2008.

[11] Azərbaycan etnoqrafiyası (3 cilddə) / Baş red. T.Bünyadov. - Bakı: "Şərq-Qərb", - c. 3. – 2007.

[12] Novruz bayramının ensiklopediyası // tərt. ed., B.Abdulla, T.Abbasov. – Bakı: Şərq-Qərb, - 2008.

[13] Abdulhaluk M.Çay. Türk ergenekon bayramı Nevruz (ilaveli beçinci baskı) / M.Çay Abdulhaluk. - Ankara, Levent Ofset Matbaacılık ve Yayıncılık Ticaret Ltd. Şti., - 1993.

[14] Yoloğlu G. Mövsüm mərasimləri (türk xalqlarının materialları əsasında tarixi-etnoqrafik tədqiqat) /G.Yoloğlu. – Bakı: “Xəzər Universiteti” nəşriyyatı, - 2009.

[15] Allahverdi R. Təqvim mifləri və Novruz / R.Allahverdi. - Bakı: Nurlan, - 2013. - 180 s.

[16] İmamverdiyev İ. Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Âşık Şiirinde Nevruz // A. Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi, - Erzurum: 2005. Sayı 28, - s.223-239.

[17] Ağaverdi X. Novruz bayramının arxaik ritual əsasları // - Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, “Нурлан”, 2009. Otuz birinci kitab, - s. 43-86.

[18] Azimi H. Nevruz Töreni ve Azerbaycanlılar Arasında İcra Olunması // Türk Dünyası'nda Nevruz Üçüncü Uluslar Arası Bilgi Şöleni Bildirileri, (Elazığ, 18-20 Mart 1999), - Ankara: AKM Yay., - 2000, - s.71-74

[19] Bayat F. Yeni gün/novruz bayraminin sosial-iqtisadi və fəlsəfi təməli // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – Bakı: “Nurlan”, Otuz birinci kitab, - 2009. - s. 22-42.

işıqlandırılmışdır. Dissertasiya işində yeri gəldikcə bu əsərlərə müraciət olunmuşdur. Tədqiqat işində Qurban və Ramazan bayramlarının keçirilmə özəllikləri ilə bağlı araşdırılmalarda R.Özdireyin[20], A.Şükürovun[21], S.Bekkinin[22], Ə.Əhmədin[23] əsərlərindən faydalanılmışdır.

Bəhs etdiyimiz dövrün qonaqpərvərlik adəti ilə bağlı bir sıra məsələlərin araşdırılmasında S.T.Bünyadovanın "Azərbaycan qonaqpərvərliyi"[24] adlı monoqrafiyası özünəməxsus bir yer tutur. Əsərdə Azərbaycan xalqına məxsus çoxəsrlik qonaqpərvərlik adətinin xüsusiyyətləri, tarixi inkişaf mərhələləri və bu mərhələlərə uyğun olaraq onun fərqli və oxşar cəhətləri və s. haqqında maraqlı mülahizələrə rast gəlmək mümkündür. Əsər orta əsrlərə, o cümlədən Səfəvi dövrünə aid müxtəlif xarakterli mənbələrlə zəngindir.

Tədqiqat işi işlənərkən, həmçinin H.Quliyevin[25], S.Özbanın[26], Ə.Əhmədin[27], N.Alkanın[28] tədqiqatlarından da geniş ölçüdə istifadə olunmuşdur.

Səfəvilər dövrünə aid din və dini münasibətlər problemi dünya səfəvişünaslığında ən çox araşdırılan mövzulardan biridir. Məhz bu dövrlərdə şiəliyin ayrıca bir məzhəb kimi fiqhi və inanc-ritual əsasları

---

[20] Özdirek R. Kurban ibadeti. Esas Melumatlar, Aktual Suallar. R.Özdirek, Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran: E. Kərimov. - Bakı, İpək nəşriyyatı, - 2011. - 97 s.

[21] Şükürov A. İslam, adət və ənənə / A.Şükürov. - Bakı: Azərnəşr, - 1981.

[22] Bekki S. Nevruz Kurban İlişkisi ve Kurbana Bağlı Olarak Yapılan Ritler-Pratikler // Hacı Bektaş Veli Araştırma Dergisi, - 2004, sayı 29. - s.11-18.

[23] Əhməd Ə.S. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti / Ə.S.Əhməd. - Bakı: Elm, - 2012.

[24] Bünyadova Ş.T. Azərbaycan qonaqpərvərliyi / Ş.T.Bünyadova. – Bakı: "Elm", - 2005. - 152 s.

[25] Quliyev H. Azərbaycanda ailə məişətinin bəzi məsələləri / H.Quliyev. – Bakı: "Elm", - 1986. - 96 s.

[26] Özban S. Portekizli Seyyahlar: İran, Türkiye, Irak, Suriye ve Mısır Yollarında / S.Özban, - İstanbul: Kitap Yayınevi, - 2007. - 201 s.

[27] Əhməd Ə.S. Səfəvilər dövründə Azərbaycanda qonaqpərvərlik adəti // Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası. – 2016. № 2. - s. 152-168.

[28] Alkan N.15. ve 16. Yüzyıllarda İran ipek yolunda kervanlar.// Uludağ Üniversitesi Fen-Edebiyyat Fakültesi Sosyal Bilimler Dergisi. -2006. Yıl: 7, Sayı: 11, - s.141-157.

yenidən işlənilmiş, iri miqyaslı məzhəbdəyişdirilmə fəaliyyətləri və şiəliyin legitimləşməsi prosesi həyata keçirilmiş, Səfəviyyə təriqətinin şəxsində sufiliyin siyasiləşməsi prosesi və s. kimi bir çox mühüm hadisələr baş vermişdir. Dissertasiya işlənərkən bəhs etdiyimiz bu problemlərə ətraflı toxunulmuş və bununla bağlı müxtəlif dillərdə nəşr edilən tədqiqatların bir çoxundan faydalanılmışdır.

Türkmən dindarlığı və Səfəvi sufiliyinin ideya-siyasi və ritual əsasları, köçəri Türkmən tayfalarının dini dünyagörüşü, mədəni və məişət həyatı, yeni formalaşan Qızılbaşlıq ideologiyasının xarakterik cəhətləri, Səfəvilərin şiəliyə meyillənməsi və onların mənimsədiyi ilkin şiəliyin bidətçi xarakteri, eləcə də Səfəvi dövləti qurulduqdan sonra kütləvi məzhəb dəyişdirmə fəaliyyətləri və s. kimi bir çox məsələlər türkiyəli alim R.Yıldırımın 2017-ci ildə "İletişim" nəşriyyatında çap olunmuş "Aleviliğin Doğuşu. Kızılbaş Sufiliğinin Toplumsal ve Siyasal Temelleri(1300-1501)"[29] adlı əsərində ətraflı şəkildə öz əksini tapmışdır. Səfəvi hərəkatının Türkmən həyat tərzi ilə sufiliyin sintezi əsasında yarandığını[30] irəli sürən müəllif *"Səfəvi dövlətinin yaranmasını bir Türkmən uğuru"*[31]kimi qiymətləndirir. *"Azadlığı sevən bu insanların (türkmənlərin – Ə.Ə.) Qızılbaş yolunu seçmələrinin başlıca səbəbi İsmayıl tərəfindən yaradılan yeni dində açıq fikirliliyin olması və şəriət qaydalarına laqeyd münasibət bəslənməsi ilə bağlıdır"*[32]

Mövzu işlənərkən ABŞ da yaşayan İran əsilli araşdırıcı Lonq Aylend (Long Island) Stony Brook universitetinin professoru prof. S.Ə.Arjomandın əsərlərindən, o cümlədən türkçəyə tərcümə olunmuş "Safevî dönemi İran'inda dini taşkinlik (gulüvv), sufilik ve sünnilik (1501-1722)" (gulüvv), sufilik ve sünnilik (1501-1722)"[33] adlı iri

[29] Yildirım R. Aleviliğin Doğuşu Kızılbaş Sufiliğinin Toplumsal ve Siyasal Temelleri [1300-1501]. / R.Yildirım, Çeviren: Barış Yıldırım. – İstanbul: İletişim yayınları, - 2017.
[30] Yenə orada, s.265
[31] Yenə orada, s.262
[32] Yildirım R. Göstərilən əsəri, s.255
[33] Arjomand S.A. Safevî dönemi İran'inda dinî taşkinlik [gulüvv], Sufilik ve Sünnilik (1501-1722), Çeviri: Namiq Musalı // Kapadokya Tarih ve Sosyal

həcmli məqaləsindən istifadə olunmuşdur. Müəllif əsərlərində bizim də maraq dairəmizdə olan İmamiyyə şiəliyinin özəllikləri, ilkin Səfəvi şiəliyi ilə on iki imam şiəliyinin fərqləri, qulat şiəlik və onunla Səfəvi şahlarının və üləma zümrəsinin mübarizəsi, şiəlik təsəvvüf münasibətləri və s. kimi bir çox məsələlərə toxunur. Məqalə müəllifi Səfəvi dövləti qurulduqdan sonra ifrat şiəliyin aradan qaldırılmasını siyasi amillərlə bağlayır. Bununla bağlı o yazır: *"Qulüvvün aradan qaldırılması haradasa tamamən dövlətçilik prinsiplərindən (dövlət maraqlarından) qaynaqlanırdı və bu prinsiplər ikiyə ayrılmaqdaydı. Təzyiqin birinci səbəbi, qulüvv kimi anılan ifrat və buna görə də dəyişkən mehdiçi gözləntilərlə uzlaşmayan siyasi hakimiyyət modelini, mərkəzləşdirilmiş bir imperatorluğun idarə olunması üçün uyğun olan dayanıqlı və sabit bir düzənə bağlamaq ehtiyacı ilə əlaqədar idi. Qulüvvün yox edilməsini bərabərində gətirən ikinci siyasi səbəb isə gərək oturaq əhalinin və gərəksə də köçəri tayfa kütlələrinin qanuni bir şəkildə itaət altına alınmasına olan ehtiyac idi. Bu isə bu dünyaya özünəməxsus qulüvv mehdiçiliyindən daha doqmatik və əvvəlki dünya ilə daha çox bağlı olan din modelinin gətirilməsini vacib edirdi"*[34]

Mövzu ilə bağlı müraciət etdiyimiz müəlliflərdən biri də Səfəvi tarixi ilə bağlı tanınmış mütəxəssis Rocer Seyvoridir. Xatırladaq ki, o İsgəndər bəy Münşinin "Tarixi alam-areyi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərini ingilis dilinə tərcümə etmişdir. Onun 1980-cı ildə çap etdirdiyi "İran Səfəvilərin hakimiyyəti altında" ("Iran under the Safavids")[35] adlı əsəri Səfəvilərin tarixinin araşdırılması baxımından fundamental əsərlərdən biri sayılır. Əsərdə Səfəvi dövlət tarixinin bir sıra mühüm istiqamətləri dövrün mənbələri əsasında əhatəli şəkildə işlənilmişdir. Səfəvilərin hakimiyyətə gəlişi, on iki imam doktrinası, qızılbaş hərəkatı, qızılbaş aristokratiyası, Səfəvi şahlarının şiələşdirmə siyasəti, ölkədəki ifrat görüşlərə (gullüv və ya qulat) qarşı mübarizə, qeyri-müsəlman azlıqlara münasibət, üləma

---

Bilimler dergisi (Cappadocia: Journal of history and social sciences), - 2016. 2016. sayı: 7, - s.160-195

[34] Arjomand S.A. Göstərilən əsəri, s.186

[35] Savory R.M. Iran under the Safavids / R.M.Savory, Cambridge: Cambridge University Press, - 1980

təbəqəsi, xüsusilə də onların I Şah Abbasdan sonra siyasi nüfuz böhranı ilə əlaqədar olaraq hakimiyyətdə üstünlük qazanmaları, ölkədəki proseslərə təsir edə bilmək qabiliyyəti və digər bir çox məsələlər öz əksini tapmışdır. Lakin R.Seyvori də bir sıra Qərb tarixçi və şərqşünasları (Andrew J.Newman, V.Hinz və başqaları) kimi yanlış olaraq Səfəvi dövlətinin yaranmasını İran tarixi üçün bir dönüm nöqtəsi hesab edir və bu dövlətin mövcud olduğu dövrü fars kimliyinin və mədəniyyətinin yenidən İran coğrafiyasında dirçəlməsi və hakim olduğu bir mərhələ kimi qiymətləndirir.

Səfəvilərin dini həyatı ilə bağlı müraciət etdiyimiz müəlliflərdən biri də tarixçi, sosioloq və ilahiyyatçı kimi tanınan iranlı tədqiqatçı Əli Şəriətidir (1930-1977). Onun "Ali şiası Safevi şiası"[36], "Şehadet"[37] və bir çox digər əsərlərində İslam dini, şiəlik cərəyanı və Səfəvilərin dini həyatı ilə bağlı maraqlı yanaşmalara rast gəlmək mümkündür. O Səfəvilərin şiəliyin yenidən dircəldilməsində və yayılmasında önəmli rol oynadığını və bu işdə onların böyük xidmətlərinin olduğunu vurğulayır. Ə. Şəriəti yazır: *"On əsr boyu özünü sünni rəhbərlərin, sünni xəlifələrin, qaznəli, səlcuqlu, xarəzmşahlı, elxanlı və teymurlu sultanların, hakimiyyətə və sünni rejimə bağlı imam və qazilərin işgəncəsi altında görən, dini inancını heç bir açıqlama hüququ olmayan və təkiyyə (təhlükə olduqda inancını gizlətmə – Ə.Ə.) pərdələri altında və zindanın qaranlıqlarında davamlı olaraq narahatçılıq içində yaşayan bir şiə, indi qəflətən öz nifrət və kin duyğularını, iti qılıncları ilə həll edəcəyi və dini azadlığa, etiqadı bir qurtuluşa çatdıra biləcəyi qəhrəmanlar tapmışdı. Bu liderlər, iti bir ağılla və şiə cəmiyyətinin o daxili inamına əsaslanaraq öz siyasi quruluşlarını xalqın ruh, vicdan və düşüncə dərinliklərində yaratmağa nail ola bildilər. Ona görədir ki, İslamdan sonrakı Iran tarixində Səfəvi hakimiyyəti, xalq arasında dərin kökləri olan yeganə rəhbərlikdir"*[38]. O eyni zamanda Səfəvilərin yaydığı və tapındığı şiəliyi "Səfəvi şiəliyi" kimi xarakterizə edərək fərqləndirir. Tədqiqatçı hesab edir ki, bu şiəlik

---

[36] Şeriati A. Ali şiası Safevi şiası / A.Şeriati, - Ankara: FECR yayınevi, - 2009
[37] Şeriatî A. Şehadet / A. Şeriati, çev. M. Şayir, - Ankara: FECR yayınevi, - 1995
[38] Şeriati A. Ali şiası Safevi şiası / A.Şeriati, - Ankara: FECR yayınevi, - 2009, s. 49

900 il boyunca sünniliyə qarşı mübarizə aparan *"hərəkat şiəliyi"*nin, *"Əli şiəliyi"*nin *"qurum şiəliyi"*nə *"Səfəvi şiəliyinə"* transformasiyası nəticəsində yaranan yeni bir şiəlik idi[39]. O Səfəvilərin "*Aşura şiəliyini"* qorumaqla *"Qan, şəhadət və qiyam şiəsi"* kimi *"qeyri adi bir şah əsər yaratdı"*ğını iddia edirdi[40].

Araşdırdığımız problemlərə bağlı müraciət etdiyimiz müəlliflərdən biri də ABŞ-ın tanınmış universitetlərindən biri olan Delevar universitetinin tarix üzrə professoru R.Mattheedir (doğumu: 1953-cü il). O Səfəvi ölkəsinin tarixi, mədəniyyəti, o cümlədən onun dini həyatı ilə bağlı çoxsaylı tədqiqatların müəllifidir. Onun "Yoxsulluq və əzm: Gec dönəm Səfəvi İranında İsfahan və Şamaxıda yezuitlərin (cizvitlərin) missiyası", "Safevî İranı Bir İmparatorlukmuydu?"[41] və s. kimi bir çox araşdırmalarında Səfəvilərin dini həyatı, Səfəvi hakim elitası tərəfindən xristian missionerlərlə təşkil olunan teoloji debatlar, ölkədəki yaşayan digər dinlərin nümayəndələrinə münasibət, xristian missionerlərin Səfəvi ölkəsindəki fəaliyyətləri və s. kimi bir çox məsələlər öz əksini tapmışdır. O, Səfəvilərin dövründə digər dinlərə olan münasibəti dözümlü hesab edərək bildirir ki, nə qədər *"diqqətçəkiçi və paradoksal"* olsa da Səfəvilər *"praqmatik dözümlülüyün"* nümunəsi idilər[42]. R.Matthee əsərlərində Səfəvilər dövründə erməni xristianlarla bağlı məsələlərə də geniş yer verir. O bir sıra erməni və Qərb müəllifləri tərəfindən Səfəvi imperiyasının ərazisində yaşayan ermənlərinin sayının əsassız olaraq şişirdilməsinə qarşı çıxır və ermənilərin bir xristian icması olaraq önə çıxmasını onların *"işgüzarlıqları ilə ad çıxarmaları"*, ölkədə mövcud olan dözümlülük ənənələri, eləcə də Səfəvi şahları tərəfindən onlara olunan yardımlar və dəstəklə bağlayır. R.Matthee I Şah Abbasın onlardan böyük bir qrupunun Culfadan ölkənin paytaxtına

---

[39] Şeriati A. Ali şiası Safevi şiası / A.Şeriati, - Ankara: FECR yayınevi, - 2009, s.42

[40] Şeriati A. Ali şiası Safevi şiası / A.Şeriati, - Ankara: FECR yayınevi, - 2009, s. 124

[41] Matthee R. "Poverty and Perseverance: The Jesuit Mission of Isfahan and Shamakhi in Late Safavid Iran" // Al-Qantara, - 2015. 36(2), - p. 463-501.yenə onun Safevî İranı Bir İmparatorluk Muydu? // Çev. İlker Külbilge, Cihannüma. Tarih ve Coğrafya Araştırmaları Dergisi, - 2017. Sayı III/2, – s.179-208.

[42] Matthee R.Safevî İranı Bir İmparatorluk Muydu? // Çev. İlker Külbilge, Cihannüma. Tarih ve Coğrafya Araştırmaları Dergisi, - 2017. Sayı III/2, s.195

köçürməsini, eləcə də onlara dini sərbəstlik və digər imtiyazlar verilməsini öz ticari məqsədləri üçün istifadə etdiyini yazır[43]. O, həmçinin Səfəvi dövründə ermənilərin dini və mədəni intibah yaşamasında katolik missionerlərin də böyük rol oynadığını vurğulayır. O yazır: Səfəvilərin zamanında *"Ermənilər mədəni və dini bir renessans yaşamışdı. Bu renessansa görə onlar qismən də olsa Katolik rahiblərə borcludurlar. Çünki, rahiblər Avropadan kitablar gətirərək gənc ermənilərə təhsil vermiş, Avropa Uzaq Şərq və b. yerlərdə ki, erməni tacirlərə yardım göstərmişdilər"*[44].

Dissertasiyada Səfəvi dövrü dini münasibətləri işlənərkən, həmçinin V.Minorskinin[45], L.Lockhartın[46], Musa əl-Musavinin[47], M.G.S.Hodgsonun[48], A.Müllerin[49], H.F.Farmayanın[50], E.R.Fırğlalının[51], F.Topaloğlunun[52], Nasr Seyyid

---

[43] Matthee R.Safevî İranı Bir İmparatorluk Muydu? // Çev. İlker Külbilge, Cihannüma. Tarih ve Coğrafya Araştırmaları Dergisi, - 2017. Sayı III/2, s.193

[44] Matthee R. "Poverty and Perseverance: The Jesuit Mission of Isfahan and Shamakhi in Late Safavid Iran" // Al-Qantara, - 2015. 36(2), - p. 494

[45] Minorsky V. Persia: religion and history // İn Iranica, - London: Stephen Austin & Sons Ltd, 1964, Vol. 775, - pp. 242-259.

[46] Lockhart L. The Fall of the Safavi Dynasty and the Afghan Occupation of Persia / L.Lockhart, - Cambridge: Cambridge University Press, - 1958

[47] Musa, el-Musavi, Şia ve şiilik mücadilesi / M. el-Musavi, terc. Kemal Hoca, - İstanbul: Sebil Yayınevi, - 1995

[48] Hodgson M.G.S. İslam'ın Serüveni - Bir Dünya Medeniyeti Bilinç ve Tarih (3 cilitde) / M.G.S.Hodgson, çev. Alp Eker, Mutlu Bozkurt, Birol Çetinkaya, - İstanbul: İz Yayınları, - 1993. c. 2; Hodgson, M. G. S. İslâm'ın Serüveni: Bir Dünya Medeniyetinde Bilinç ve Tarih (3 cilitde) / M.G.S.Hodgson, çev. Alp Eker, Mutlu Bozkurt, Birol Çetinkaya, - İstanbul: İz Yayınları, - 1993. c. 3

[49] Мюллер А. История ислама с основания до новейших времен [в 4 т.]/ А.Мюллер, пер. с нем под ред. Н.А.Медникова, -Санкт-Петербу́рг: изд.Л.Ф.Пантелеева, - т. 3. - 1896

[50] H.F.Farmayan. The Beginnings of Modernization in Iran: The Policies and Reforms of Shah Abbas I [1587-1629] / H.F.Farmayan, - Utah: Middle East Center University Of Utah, - 1969

[51] Fığlalı E.R. Çağımızda itikadi İslam mezhepleri / E.Fığlalı, - İzmir: İlahiyat Vakfı Yayınları, - 2004

[52] Topaloğlu F. "Şia'nın Oluşumunda İran Kültürünün Etkisi" / Temel İslam Bilimleri Anabilim Dalı. Doktora Tezi / - 2010.

Hüseyinin[53], C.Aydoğmuşoğlunun[54], M.Çelenkin[55], M.Bozanın[56], M.A.Köksalın[57], M.Nemətin[58], Z.H.Bayramlının[59]tədqiqatlarından, eləcə də bir çox digər müəlliflərin əsərlərindən istifadə olunmuşdur.

Mənəvi mədəniyyət elementi kimi tədqiqat işində araşdırmaya cəlb edilən mühüm istiqamətlərdən biri də Səfəvi dövrünün təhsil sistemi və elmi bilikləri ilə bağlı olmuşdur. Qeyd edək ki, Səfəvi dövlətinin yaranması bütövlükdə ölkənin təsərrüfat həyatına, dövlətləşmə və hərbi quruculuqla bağlı işlərə, şəhərlərin dirçəlməsinə və yüksəlişinə təkan verdiyi kimi elm və təhsilin inkişafına da müəyyən imkanlar yaratmışdı. Baxmayaraq ki, XVI əsrdən etibarən ümumislam arealında tənəzzül prosesi başlamışdı. Dissertasiya işlənərkən Səfəvilərin zamanında təhsil və elmin inkişafına təsir edən amillər, spesifik xüsusiyyətləri, eləcə də onun qüsurları və problemləri və s. ilə bağlı məsələlərə geniş yer verilmişdir.

Bəhs etdiyimiz dövrün elmi biliklərin və təhsil sisteminin öyrənilməsində geniş ölçüdə faydalandığımız əsərlərdən biri M.Tərbiyətin “Danişməndani-Azərbaycan” (Azərbaycanın görkəmli elm, sənət adamları)[60] adlı əsəridir. Təzkirə ədəbiyyatının gözəl

---

[53] Nasr S.H. Tasavvufi Makaleler / S.H.Nasr, çev. Sadık Kılıç, İstanbul: - İnsan Yay., - 2002, yenə onun “Religion in Safavid Persia” // Iranian Studies, - 1974. Vol. 7, No. 1/2, - p. 271-286

[54] Aydoğmuşoğlu C. Safevi Hükümdarı Şah Abbas’ın Dinî Siyaseti // Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic. – 2011, Volume 6/3, - p. 1329-1337

[55] Çelenk M. “Safevîlerin Din Politikası ve İran’ın Şiîleşme Seyri” // - Çanakkale: Çanakkale Onsekiz Mart Üniversitesi İlahiyat Fakültesi Dergisi, - 2014. Sayı 4, - s.7-35.

[56] Bozan M. Şii-İmami Kaynaklarda Kerbelâ’nin Menkâbevi Anlatimi // Çeşitli Yönleriyle Kerbela (Tarih bilimleri), Uluslararası Kerbelâ Sempozyumu bildirileri. – Sivas: Asitan Yayıncılık, - 20-22 Mayıs, - 2010. c.1, - s.477-492

[57] Köksal M.A. Hz. Hüseyin ve Kerbela Faciası / M,A,Köksal, - İstanbul: Köksal Yayinciq, - 2001.

[58] Nemət M. Azərbaycanda pirlər [Sosial-ideoloji iqtisadi-siyasi mərkəzlər]. Bakı: Azərnəşr, 1992.

[59] Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk Qızılbaş əyanlarının rolu / Z.H.Bayramlı. – Bakı: “Avropa”, - 2015.

[60] Tərbiyət M. Danişməndani - Azərbaycan (Azərbaycanın görkəmli elm və sənət adamları) / M.Tərbiyət. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, - 1987.

nümunələrindən biri olan bu əsərdə müəllif mənbələrinə söykənərək müxtəlif dövrlərdə yaşamış 919 azərbaycanlı elm və mədəniyyət xadimi haqqında məlumat verir. Əsərdə Səfəvi dövrünün bir çox elm və sənət adamlarının həyat və yaradıcılığı, onların fəaliyyətləri haqqında da məlumatlara rast gəlmək mümkündür. Xatırladaq ki, fars dilində olan «Danişməndani-Azərbaycan» ifadəsinin mənası «Azərbaycan alimləri» deməkdir.

Ölkənin mədəni həyatının, o cümlədən maarif sisteminin öyrənilməsində S.Onullahinin "Qədim Təbrizin mədəniyyət tarixindən (X-XVII əsrlərdə)", yenə onun "XVI-XVII əsrlərdə Təbrizdə maarif sisteminin bəzi məsələlərinə dair"[61] adlı araşdırmalarının da mühüm əhəmiyyəti vardır. Bu araşdırmalarda dövrün maarif sistemi, xüsusilə də Səfəvi dövründə məktəblərdə dərs deyən müəllimlərin dini ehkamların tədrisində oynadıqları əhəmiyyətli rol haqqında qiymətli məlumatlara rast gəlmək mümükündür.

Bəhs etdiyimiz dövrün elmi biliklərin və təhsil sisteminin öyrənilməsində M.Chamberlain[62], F.Rüstəmovun[63], Z.Məmmədovun[64], Z.Hüseynlinin[65], C.Aydoğmuşoğlunun[66],

---

[61] Onullahi S. Qədim Təbrizin mədəniyyət tarixindən [X-XVII əsrlərdə] // Qobustan. - 1974. №3. - s. 54-57, yenə onun "XVI –XVII əsrlərdə Təbrizdə maarif sisteminin bəzi məsələlərinə dair" // Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. TFH seriyası, - 1974, №4. - səh. 22-28

[62] Chamberlain M. Ortaçağ'da Bilgi ve Sosyal Pratik, Şam, 1190-1350 / M.Chamberlain. çev. Büşra Kaya, - İstanbul: Klasik Yayınları, - 2014.

[63] Rüstəmov F. Şərqdə pedaqogika tarixi (qədim və orta əsrlər) / F.Rüstəmov. – Bakı: Nasir, - 2002.

[64] Məmmədov Z. Azərbaycan fəlsəfə tarixi / Z.Məmmədov. - Bakı, Şərq-Qərb, - 2006.

[65] Hüseynli Z. Farsça Yazan Türk Tarihçilerin Türk Tarihine Yaklaşimları (16-17. yy.) // I. Uluslararası Türklerde Tarih Bilinci ve Tarih Yazıcılığı Sempozyumu. Bildiriler Kitabi. – Zonguldak: Bülent Ecevit Üniversitesi Yayınları No: 7, - 23-25 Ekim 2014, - 2015. - s.221-228; yenə onun, Səfəvilər dönəminə aid tarixi qaynaqlar (I Şah Abbas dönəmindən sonunadək) // – Bakı: Filologiya məsələləri, - 2013. №4, - s. 303-311.

[66] Aydoğmuşoğlu C. Şah Abbas (1587-1629) Devrində İranda Sosyal ve Kültürel Hayat // Türk Dünyası İncelemeleri Dergisi /Journal of Turkish World Studies, - 2011. XI/2, - s.261-276

R.Xəlilovun[67], Ə.Nəcəfin[68] araşdırmaları böyük əhəmiyyətə malikdir.

Səfəvi dövrünün mədəni həyatında miniatür sənətkarlığı, bədii kitab tərtibatı, və xəttatlıq ən inkişaf etmiş sahələr kimi diqqəti daha çox cəlb edir. Qeyd edək ki, dövrün miniatür sənəti öz inkişafında əvvəlki (Qaraqoyunlu, Ağqoyunlu və Herat məktəbləri) məktəblərinin ənənələrindən, eləcə də Avropanın qabaqcıl üslublarından faydalansa da, spesifik xarakterə malik olub, zamanının ən qabaqcıl üslublarından biri idi. Səfəvi sənətkarları miniatür sənətinə bir sıra yeniliklər gətirərək, onun mövzu və texnika cəhətdən zənginləşməsində böyük rol oynamışlar. Səfəvi dövrü miniatür sənətini İslam miniatür sənətinin ən parlaq səhifələrindən biri kimi qiymətləndirmək mümkündür. Təsadüfi deyil ki, Səfəvilərlə bağlı bir sıra araşdırmaların müəllifləri olan V.Minorski, E.Zonis kimi tədqiqatçılar Səfəvi dövrünün yaradıcı potensialını qiymətləndirərkən miniatür rəssamlarının əməyinə böyük dəyər verirlər. V.Minorski, "İran: Din və tarix" adlı araşdırmasında yazırdı: *"Səfəvilər dövrünün yaradıcı enerjisi ... o zamanın ruhuna daha çox uyğun gələn memarlıq və miniatür rəssamlığı sahələrində daha layiqli təcəssümünü tapdı"*[69].

Bəhs etdiyimiz dövrün xəttatlıq, bədii kitab tərtibatı və miniatür sənətkarlığı kimi sahələrin tədqiqi A.Y.Qaziyevin[70], P.F.Kazıminin[71],

---

[67] Халиловъ Р. Мектебы и медресе гор. Мешгеда // Сборник материалов для описания местностей и племен Кавказа [СМОМПК], - Тифлисъ: Издание Управления Кавказского Учебного Округа, - 1900. Выпуск двадцать седьмой, Отдел I. - с. 102-119.

[68] Nəcəf Ə. Orta əsrlər Azərbaycanında təhsil anlayışı, strukturu, metodologiyası və tədris vasitələri (X-XVI əsrlər) // Bakı: "Azərbaycan məktəbi". – 2018. № 2 [683], - s.107–123.

[69] Minorsky V. Persia: religion and history // İn Iranica, - London: Stephen Austin & Sons Ltd, 1964, Vol. 775, - p. 253.

[70] Казиев А.Ю. «Художественное оформление азербайджанской рукописной книги XIII-XVII веков» / А.Ю.Казиев, - Москва: Издательство «Книга», - 1977

[71] Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti / P.F.Kazımi. - Bakı: "ABC" nəşriyyatı, - 2012.

B.Denikenin[72], A.T.Adamovanın[73], O.F.Akmuşinin[74], O.F.Akmuşinin və A.A.İvanovun[75], M.M.Əşrəfinin[76], R.Əfəndinin[77], M.Abbaslının[78], K.Kərimovun[79], Ə.Məmmədbağıroğlunun[80] tədqiqatlarında geniş ölçüdə öz əksini tapmışdır.

Səfəvilər dövrü musiqişünaslığın, muğamların, aşıq musiqisinin, musiqi alətlərinin, rəqslərin və xalq oyun və əyləncələrinin araşdırılmasında "Azərbaycan musiqi tarixi"nin[81], U.Hacıbəyovun[82], Ə.Bədəlbəylinin[83], Bülbülün[84], E.Zonisin[85], R.Zöhrabovun "Azərbaycan muğamları", yenə onun "Muğam"[86],

---

72 Денике Б. Живопись Ирана. Б.Денике, - Москва: «Искусство», - 1938.

73 Адамова А.Т. Персидские рукописи, живопись и рисунок XV - начала XX века: каталог коллекции / А.Т.Адамова, - Санкт-Петербу́рг: Изд-во Гос. Эрмитажа, - 2010.

74 Акимушкин О.Ф. Средневековый Иран: Культура, история, филология / О.Ф.Акимушкин, - Санкт-Петербу́рг: Наука, - 2004

75 Акимушкин О.Ф. Персидские миниатюры XIV–XVII вв. / О.Ф.Акимушкин, А.А.Иванов, - Москва: Наука, - 1968

76 Ашрафи М.М. От Бехзада до Ризайи Аббаси. Развитие миниатюры. XVI - начала XVII века / М.М.Ашрафи,-Ташкент: СМИ-Азия, МИЦАИ, - 2011

77 Əfəndi R. Azərbaycan incəsənəti / R.Əfəndi. – Bakı: "Şərq-Qərb", - 2007.

78 Abbaslı M. Şah İsmayılın ömür yolu miniatürlərdə / M.Abbaslı. – Bakı: İşıq, - 1981.

79 Kərimov K.C. Azərbaycan miniatürləri / K.C.Kərimov. – Bakı: "İşıq", - 1980, yenə onun, Sultan Məhəmməd və onun məktəbi / K.C.Kərimov. – Bakı: "İşıq", - 1993

80 Məmmədbağıroğlu Ə. XVII əsr Azərbaycan əlyazma kitabı (paleoqrafiya və mətnşünaslıq məsələləri) / Ə.Məmmədbağıroğlu. - Bakı: "Elm və təhsil", - 2018.

81 Azərbaycan musiqi tarixi (2 cilddə) / Lay. rəhb. və red. Z.Səfərova (ön söz), - Bakı: "Şərq-Qərb", - c.1. - 2012.

82 Hacıbəyov Ü. Əsərləri: (4 cilddə) / Ü.Hacıbəyli. – Bakı: Azərb.SSR EA-nın nəşriyyatı. - c. 2. – 1965.

83 Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüğəti / Ə. Bədəlbəyli. - Bakı: Elm, - 1969.

84 Bülbül. Seçilmiş məqalə və məruzələri / Bülbül. - Bakı: Elm, - 1968.

85 Zonis E. Classical Persian Muzic: An İntrodukction / E.Zonis, - Cambridge: Harvard University Press, - 1973

86 Zöhrabov R. Azərbaycan muğamları / R.Zöhrabov. – Bakı: «Təhsil», - 2013, yenə onun Muğam / R.Zöhrabov. - Bakı: Azərnəşr, - 1991

S.A.Abdullayevanın[87], M.Kərimovun[88], Z.Səfərovanın[89] əsərlərinin, həmçinin, S.Ağayevanın[90], R.Məmmədovanın[91] məqalələri mühüm əhəmiyyətə malikdir. Dövrün oyun və əyləncələri ilə bağlı məsələlərin araşdırılmasında isə Q.Şükürovun[92], iranlı alim M.T.Baharın[93], X.Ağaverdinin[94], A.B.Baxşəliyevin[95] tədqiqatlarından, eləcə də bir çox digər müəlliflərin əsərlərindən bəhrənilmişdir.

Doktorluq dissertasiyası qələmə alınarkən bir çox mənbələrə, o cümlədən tədqiq olunan dövrə aid yazılı qaynaqlara, şifahi xalq yaradıcılığı nümunələrinə, o dövr ədiblərinin əsərlərinə, epiqrafik abidələrə, miniatür sənəti nümunələrinə, rəsmi sənədlərə və s. istinad edilmişdir. Müsbət haldır ki, artıq dövrə aid əsas mənbələrin bəziləri azərbaycancaya çevrilmiş və onların bir çoxu haqqında maraqlı tədqiqat işləri ərsəyə gələrək çap olunmuşdur.

Dövrə aid yazılı qaynaqlar sırasında əsas yerlərdən birini Azərbaycan haqqında məlumat vermiş yerli və əcnəbi müəlliflərin

---

[87] Abdullayeva S.A. Azərbaycan musiqisi və təsviri sənət / S.A.Abdullayeva – Bakı: “Oğuz Eli”, - 2010, yenə onun, Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq – orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: Adıloğlu, - 2002.

[88] Kərimov M.T. “Azərbaycan musiqi alətləri” / M.T.Kərimov. – Bakı: Yeni nəsil, -2009.

[89] Səfərova Z. Azərbaycan musiqi elmi (XIII- XX əsrlər) / Z.Səfərova. – Bakı: “Azərnəşr”, - 2006.

[90] Ağayeva S. Orta əsr şərqinin musiqi elminin fəlsəfi kökləri haqqinda // - Bakı: “Şərq Fəlsəfəsi Problemləri” Beynəlxalq elmi - nəzəri jurnal, - 2018. № 2, s. 5-18.

[91] Məmmədova R. Azərbaycan muğamlarının folklor qaynaqları / “Muğam aləmi” Beynəlxalq Elmi Simpoziumunun materialları. –Bakı: Şərq-Qərb”, 18-20 mart, - 2009. - s. 294-299.

[92] Şükürov Q.“Safevîlerde Av Merasimleri” //Acta Turcica Çevrimiçi Tematik Türkoloji Dergisi, - 2009. Yıl 1, Sayı 1, - s.57-71.

[93] Бахар М.Т.«Джаванмарди» // Ираннаме. Научный востоковедческий журнал.– Алматы: -2008, №1, - с. 212-221.

[94] Ağaverdi X. Qarabağda atüstü oyunlar və çövkən // “Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları – Bakı: Elm və təhsil, - 2014, - s. 28-48.

[95] Baxşəliyev A.B. Orta əsrlərdə Azərbaycanda idman oyunları və əyləncələr (Şardenin “səyahətnamə”si üzrə) // - Bakı: Sumqayıt Dövlət Universiteti “Elmi Xəbərlər”, Sosial və humanitar elmlər bölməsi, - 2014. №3. - s. 49-53.

əsərləri tutur. Bu qaynaqlar Azərbaycan xalqının mənəvi aləmini əks etdirən çox mötəbər mənbələrdir. Yerli mənbələr sırasında dövrün tarixi-etnoqrafik baxımdan araşdırılmasında İsgəndər bəy Türkman Münşi. Həsən bəy Rumlu, Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi, İbn Bəzzaz Ərdəbili, Şərəfxan Bidlisi, Oruc bəy Bayt, Sadiq bəy Sadiqi Əfşar,Qazi Əhməd bin Hüseyn əl Hüseyni Qumi, Arakel Təbrizli, Həsən Calalyan, Simeon Yerevantsi və başqaları kimi bir çox müəlliflərin əsərlərindən geniş ölçüdə faydalanılmışdır.

Səfəvilər dövrünün etnoqrafiyası ilə bağlı məsələlər bir çox avropalı, səyyah, tacir, missioner və diplomatların qələmə aldıqları əsərlərdə, yol qeydlərində, gündəliklərdə, hesabatlarda da geniş şəkildə işıqlandırılmışdır. Qeyd edək ki, xalqımızın məişət və təsərrüfat həyatının, eləcə də adət-ənənələrin, mərasimlərin və s. daha ətraflı araşdırılması baxımından orta əsr Avropa mənbələri yerli mənbələrlə müqayisədə bir sıra üstünlüklərə malikdir. Çünki Şərqin ənənəvi tarix yazarlığı prinsiplərinə əsaslanan yerli mənbələr daha çox hökmdarın həyatı, eləcə də siyasi və hərbi səfərlərlə bağlı hadisələrin təsvirlərinə üstünlük verirdi. Dissertasiya işlənərkən Evliya Çələbi, Mikele Membre, Vinçenso Alessandri, Giovan Antonio Menavino, don Qarsiya de Silva Fiqeroa, Pyetro della Valle, Du Mans, Pyer Davit, J,Şarden, Adam Oleari, Sanson, Jan Battist Tavernye, Tadeuş Kruşinski, Yan Streys, Engelbert Kempfer, Yan Fedot Kotov Y.Tadeuş Kruşinski və bir çox başqaları kimi avropalı müəlliflərə müraciət olunmuşdir.

Dissertasiya işlənən zaman Səfəvi tarixi ilə bağlı müxtəlif xarakterli mənbələrə ayrıca tədqiqat əsərləri həsr edərək araşdıran N.Musalı, Ş.K.Məmmədova, A.Mizəyev, E.T.Qarayev, Z.Bayramov, R.Dadaşova, F.R.Unat, T.Gündüz, Z.Vəliyeva, Y.Zeyrek, P.P.Buşev və başqaları kimi tədqiqatçıların əsərlərindən də faydanılmışdır.

Səfəvi dövrünün zəngin mənəvi mədəniyyətinə dair çox dəyərli məlumatlar verən poetik məktəb nümayəndələrinin yaradıcılığı, o cümlədən Şah İsmayıl Xətai, M.Füzuli, Həqiri, Şəruri, Əmani, S.Təbrizi və başqalarının əsərləri də qiymətli mənbədir. Onların əsərlərində Azərbaycanın mənəvi mədəniyyətinin bir çox məsələləri işıqlandırılmış, o dövrün hadisə və proseslərinə bu və ya digər şəkildə münasibət bildirilmişdir.

Araşdırılan dövrün mənəvi mədəniyyət məsələlərinin öyrənilməsində şifahi xalq ədəbiyyatı nümunələrinin də önəmli əhəmiyyəti vardır. Həmin dövrə aid dastanlar, atalar sözləri, bayatılar və s. kimi folklor janrlarında öyrənilən problemin müxtəlif məsələlərinə dair xeyli məlumatlar vardır. Aşıq ədəbiyyatının, xüsusilə də "Koroğlu" eposunun bu baxımdan əhəmiyyəti daha böyükdür.

Mövzunun öyrənilməsində orta əsr miniatür məktəbi nümayəndələrinin (Behzad, Sultan Məhəmməd, Məhəmmədi, Mir Seyid Əli, Müzəffər Əli, Rza Abbasi, Əli Qulu Cabbadar və b.) əsərləri də bir mənbə kimi əhəmiyyətlidir. Burada müxtəlif musiqi alətlərinin, oyun və əyləncə mərasimlərinin və s. vizual canlandırılması o dövrə aid olunan musiqi alətlərinin quruluşunu, tam görünüşünü bərpa etməyə, eləcə də, oyun və əyləncə mərasimlərinin necə keçirildiyi haqqında daha dəqiq fikir söyləməyə imkan yaradır.

**Tədqiqatın obyekti və predmeti.** Səfəvilər dövrünün mənəvi mədəniyyəti tədqiqatın obyektini, onun ayrı-ayrı aspektləri, inkişaf xüsusiyyətləri, yeni təzahür formaları, Səfəvi cəmiyyətinin həyatında oynadığı rol və s. tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi Azərbaycan xalqının Səfəvilər dövrü mənəvi mədəniyyətinin müxtəlif aspektlərini tarixi-etnoqrafik baxımdan ətraflı və kompleks şəkildə araşdırmaqdır. Bu məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Tədqiq olunan dövrdə Azərbaycan xalqının mənəvi həyatının müxtəlif cəhətlərini aydınlaşdırmaq, mənəvi həyatda baş verən təkamülü izləmək, mənəvi mədəniyyətin əsas inkişaf meyllərinin və istiqamətlərinin müəyyənləşdirilməsi;
- Xalq və dini bayramların yayılma arealının və keçirilmə özəlliyinin müəyyənləşdirilməsi, tarixilik baxımından indiki dövrlə müqayisə edilərək oxşar və fərqli cəhətlərinin aydınlaşdırılması;
- Tədqiq olunan dövrdəki Azərbaycan qonaqpərvərlinin etnoqrafik səciyyəsini vermək və qonaqpərvərlik adətinin bir sıra yeni keyfiyyətlərini üzə çıxarmaq;
- Din və dini münasibətlərin, o cümlədən də İslam dininin orta əsr azərbaycanlılarının həyatındakı rolu və təsir imkanlarının müəyyənləşdirilməsi, Qızılbaşlıq doktirinasının başlıca cəhətlərinin

təhlili, şiəliyin hakim məzhəbə çevrilməsi və legitimləşməsi, mühacir üləma, şiə fiqh institutunun möhkəmlənməsi, qulat şiəlik, ölkə ərazisində yaşayan qeyri-müsəlmanlara münasibət, dini bayramlar, dini mərasimlər, Səfəvilərin ziyarətgahlarla bağlı siyasəti və s. kimi bir çox məsələlərin araşdırılması. Gəzərgi dərvişlər, onların spesifik xüsusiyyətləri, onlarla bağlı ritual, ayin və mərasimlərin təsvirinin və elmi şərhinin verilməsi;

- Səfəvilər dövrünə aid təhsil və elmi biliklərin inkişaf xüsusiyyətləri ilə bağlı təhlillərin aparılması, Səfəvi təhsil sisteminin orta əsrlərin müsəlman təhsil sistemi ilə oxşar və fərqli cəhətlərinin aydınlaşdırılması, təhsil sisteminin və elmi biliklərin keyfiyyət göstəricilərinin təhlil edilməsi;
- Tədqiq olunan dövrdəki Azərbaycan musiqi mədəniyyətinin etnoqrafik səciyyəsinin verilməsi, onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, mənəvi tələbatın ödənilməsindəki rolu, musiqi alətləri, rəqslər, din və musiqi, haram və halal musiqi və s. kimi məsələlərinin araşdırlması;
- Səfəvilər dövrü oyun və əyləncələrinin xarakterik xüsusiyyətlərinin təhlili, onların kompozisiyasında yer alan rituallar, geyimlər, dekorasiyalar, bəzəklər, oyun alətləri [küy, top, qılınc, nizə və s.], minik heyvanları [at, dəvə və s.], döyüşdürülən heyvanlar [buğa, kəl, qoç, dəvə və s.] yeməklər, içkilər və s. ilə bağlı məsələlərin araşdırılması;
- Xəttatlıq və bədii kitab tərtibatı ilə bağlı ənənələrin inkişaf xüsusiyyətlərinin araşdırılması;
- Miniatür sənətinin inkişafını şərtləndirən başlıca amillərin şərhi, dövrün miniatür sənətinin spesifik xüsusiyyətlərinin tədqiqi, miniatür sənəti nümunələrinin dövrün etnoqrafiyasının bəzi aspektlərinin öyrənilməsindəki rolu məsələsinin aydınlaşdırılması;
- Mənəvi mədəniyyətin bütün formalarının inkişafında davamlı irsiyyət və varisliyin miqyasının müəyyənləşdirməsi, eləcə də yeni mədəni nailiyyətlərin keçmiş mədəni irslə əlaqə mexanizminin araşdırılması;

**Tədqiqat metodları.** Tədqiqat işi yazılarkən nəzəri yanaşma, təsviri, qarşılıqlı müqayisə, elmi-tənqidi və ümumiləşdirmə kimi metodlardan istifadə olunmuşdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə çıxarılan müddəalar əsasən aşağıdakılardan ibarətdir:

- Səfəvilərin zamanında da Novruz bayramı İslam dininin, xüsusilə də şiəliyin xalq bayramlarına mənfi münasibətinə rəğmən, öz mövqelərini qoruyub saxladı. O özündən əvvəlki bayram adətləri və ənənələrini yaşatmaqla yanaşı, yeni elementlərlə də xeyli zənginləşdi.
- Bəhs etdiyimiz dövrdə də Qurban və Ramazan bayramları əsas dini bayramlar olmaqla müsəlman dindarların həyatında önəmli yerə sahib olmuşdur. Səfəvi ölkəsində hər iki bayram hakim siyasi və dini elitanın xüsusi əhəmiyyət verdiyi bayramlardan olmuş və çoxsaylı şənlik xarakterli tədbirlərlə, o cümlədən müxtəlif oyun və əyləncələrin, musiqi və rəqslərin müşayiətilə yüksək əhval-ruhiyyə ilə keçirilirdi.
- Səfəvilər zamanında da xalqımız tərəfindən qonağın hörmətlə, gülərüzlə qarşılanması həmişə vacib əməllərdən sayılıb. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq qonağa fərq qoyulmaması, ona qarşı münasibətdə yardımsevərlik, xeyirxahlıq, dürüstlük və s. kimi əxlaqi keyfiyyətlərin önə çəkilməsi bəhs etdiyimiz dövr Azərbaycan qonaqpərvərliyinin vacib xüsusiyyətlərindən idi.
- Səfəvi təriqəti öz inkişafında əvvəlki zordan imtina edən, sülhpərvər, pasifist sufiliyin əvəzinə, yeni bir doktrin ortaya qoydu. Qızılbaş sufiliyi adlanan bu doktrin Səfəvi təriqət ideyaları ilə türkmən dindarlığının sintezi nəticəsində yaranan yeni və fərqli bir ideyalar sistemi idi.
- Səfəvilər şiəliyi yenidən dirçəldərək, onu bölgədə hakim məzhəb halına gətirdilər. Onlar şiəliyin ideya-siyasi və fiqh əsaslarının yenidən işləyib hazırlayaraq, onu xeyli zənginləşdirdilər. Şiəlik, məhz Səfəvilərin sayəsində öz kimliyini təsdiq edən və həmişəyaşarlılığını təmin etdirə bilən bir məzhəbə çevrildi.
- Səfəvi hakim elitasının dini fəaliyyətində önəmli istiqamətlərdən biri də ifrat görüşlərə (gulüv və ya ğulat) qarşı aparılan mübarizə ilə bağlı idi. Çünki bu cür görüşlər həm dövlətin əsaslarının möhkəmlənməsinə, həm də isna əşəriyyə şiəliyinin oturuşmasına və yayğınlaşmasına ciddi surətdə mane olurdu.
- Səfəvi şiələrinin ziyarət düşüncəsində də bir sıra dəyişikliklər baş verdi. Səfəvi hakim dini və siyasi elitasının bu sahə ilə əlaqədar apardığı başlıca fəaliyyət şiələrə aid ənənəvi şiə ziyarətgah

məkanlarının abadlaşdırılması və cazibadarlığının artırılması, eləcə də yenilərinin yaradılması və onların şiələr arasında populyarlaşdırılması ilə bağlı idi.

- Səfəvilər müsəlmanların yaddaşında faciəvi və matəm hadisəsi kimi qalan Kərbəla müsibətinə yeni elementlər daxil etmiş və onu şiəlik yönündəki təbliğatın mühüm vasitələrindən birinə çevirmişdilər.

- Səfəvilər dövründə qeyri müsəlmanlara münasibət dözümlü xarakter daşıyırdı. Səfəvilərin dövründə başqa dinlərin nümayəndələri, dini icma olaraq nisbi müstəqilliklərini qoruyub saxlaya bilmiş və icma daxilində bir sıra məsələlərin həlli onların öz inhisarında olmuşdur. Onlar, xüsusilə də ermənilər, gürcülər, yəhudilər və hindlilər ölkənin ictimai-siyasi həyatına inteqrasiya olunaraq, iqtisadi və siyasi sahədə mühüm mövqeyə malik olmuşlar.

- Səfəvi təhsil sistemi zamanında bölgənin təhsil həyatına bir canlanma və dinamizm gətirmişdi. Bunu hakim elitanın, xüsusilə də Şah İsmayıl, Şah Təhmasib və Şah Abbasın təhsilə müsbət münasibəti, təhsilin çoxşaxəliliyi, eləcə də məktəblərin sayının və əhatəliyinin artması və burada təhsil alanların çoxluğu da təsdiqləyir. Səfəvilər dövründə təhsilin aşağı pilləsi kimi məhəllə məktəbləri, yuxarı pilləsi kimi isə mədrəsələr daha geniş yayılmışdı. Bu tipli tədris müəssisələrində nəqli elmlərlə yanaşı əqli elmlər də tədris olunurdu.

- Səfəvi dövrünün elmi biliklərini xarakterizə edərkən, əqli elmlər içərisində tibb, tarixşünaslıq, fəlsəfə, astronomiya və teologiya kimi elm sahələrin daha yüksək inkişaf etdiyinin şahidi oluruq. Hakim dini-siyasi elitanın təbiət elmləri ilə müqayisədə ilahiyyat elmlərinə və yaradıcı potensiala (teologiya, xəttatlıq, miniatür sənəti, memarlıq, poeziya və s.) daha çox diqqət yetirdiyini izləmək mümkündür. Ölkədə müxtəlif elm sahələrində olan inkişaf meyllərinə baxmayaraq, onun inkişafını ləngidən, ona mane ola bilən bir sıra ciddi faktorlar da mövcud idi.

- Səfəvilər dövründə xəttatlıq sənəti yüksək səviyyədə inkişaf etmiş, yüzlərlə xəttat və nəssax (əlyazma kitabını qələmə alan katib) yetişmişdi. Ərəb qrafikasına aid "şikəsteyi nəstəliq" və "tuğrayi-şahi" kimi yeni xətlər icad edilmiş, mövcud xətlər təkmilləşdirilmişdi. Bu dövrdə üzü köçürülən əsərlərin miqyası ilə bərabər, onun müxtəlif sahələri əhatə etməsi ilə bağlı coğrafiyası da genişlənmişdir.

• İslam miniatür sənətinin ən parlaq səhifələrindən birini Səfəvi dövrü miniatür sənəti təşkil edir. Səfəvi sənətkarları mövcud miniatür sənətini mövzu və texnika cəhətdən zənginləşdirərək, onu daha yüksək səviyyəyə qaldırmağa nail ola bilmişdilər. Mürəkkəb kompozisiyaları, çox fiqurluluğu, rəng çalarlarının müxtəlifliyi, təsvir olunan fiqur və obyektlərin özünə daha çox oxşaması və s. baxımdan Səfəvi dövrü miniatür sənəti orijinallıq kəsb etməkdədir. Səfəvi miniatür sənətini fərqləndirən xüsusiyyətlərdən biri də təsvirlərdə etnoqrafik motivlərin geniş yer alması ilə bağlıdır.

• İslam dinindən qaynaqlanan bir sıra məhdudiyyətlərə baxmayaraq Səfəvilər dövründə musiqi sənəti, onun ayrı-ayrı janrları inkişaf etmiş və cəmiyyətin mədəni həyatında öz önəmli rolunu qoruyub saxlamışdır. Bunu o dövrdəki el şənliklərinin, bayramların, müxtəlif səviyyəli qəbulların, qarşılanmaların, rəsmi keçidlərin, ziyafət məclislərinin, toyların və s. musiqinin müşayiəti ilə keçirilməsi də sübut edir. Səfəvilər dövründə musiqi sənətinin yeniləşməsi və yeni elementlərlə zənginləşməsi prosesi davam etmişdir.

• Oyun və əyləncələr Səfəvilər zamanında da sağlamlıq, döyüş hazırlığı, bacarıq, əqli tərbiyə, şənlənmək, əylənmək və s. kimi keyfiyyətlərin aşılanmasında böyük rol oynamışdır. Bəhs etdiyimiz dövrdə Azərbaycanda çövkən, qəpəq, cirit, cıdır, güləş, qılıncoynatma, oxçuluq, nərd, şahmat, kəndirbazlıq, heyvan döyüşləri, məzhəkə, hoqqabazlıq, atəşbazi və s. kimi oyunlar və əyləncəli tamaşalar, eləcə də ali zümrənin sevimli əyləncəsi olan ovçuluq daha çox populyar olub, geniş yayılmış idi. Xüsusilə də atüstü oyunlar Səfəvi aristokratiyasının həyatında önəmli yerə sahib olmuş və şah başda olmaqla hakim zümrənin nümayəndələri də bu oyunların fəal iştirakçıları olmuşlar.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan işin yeniliklərini əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

– İlk dəfə olaraq Azərbaycanın Səfəvilər dövrü mənəvi mədəniyyət məsələləri kompleks şəklində tədqiqata cəlb olunaraq ümumiləşdirmələr aparılmış və tarixi-etnoqrafik baxımından dəyərləndirilərək bir çox problemlər üzə çıxarılmışdır;

– Səfəvilər dövrü mənəvi mədəniyyətinin yüksələn xətlə inkişaf dinamikası izlənilərək, onun bu zaman kəsiyində etno-mədəni

funksiya daşıyaraq azərbaycanlıların etnik konsolidasiyasını gücləndirən, onun ictimai-siyasi inkişafını və mədəni yüksəlişini şərtləndirən əsas amillərdən biri olduğu vurğulanmışdır;

– Səfəvilər dövrünün xalq və dini bayramları dövrün mənbələri əsasında əsaslı şəkildə araşdırılaraq, onların Səfəvi cəmiyyətinin həyatında oynadığı rol, bayramlara aid bəzi ayin və adətlərin özünəməxsusluğu, onların icra xüsusiyyətləri, ənənəvilik və yeniliklər, İslam dinin əyləncələrə, şənliklərə mənfi münasibəti, Novruz bayramının şiəliyin ehkamları ilə bağlanması və s. kimi məsələlər aydınlaşdırılmışdır;

– İlk dəfə olaraq Səfəvi dövrünün qonaqpərvərlik adəti ətraflı şəkildə araşdırılmış, qonaqpərvərlik mərasiminin icra özəllikləri, onun reqlamentləşdirilmiş bir mərasim halını alması və yeni keyfiyyətlər kəsb etməsi, mərasimin süfrə və musiqi mədəniyyətimizin inkişafına, mətbəximizin zənginləşməsinə, bütövlükdə dövrün əyləncə sektorunun irəlləyişinə, Səfəvi ölkəsinin imicinə (ölkədəki qonaqpərvərliyinn üstün cəhətlərini müşahidə edən və bundan yazan əcnəbilər sayəsində) müsbət təsiri və s. kimi az araşdırılan və ya heç araşdırılmayan məsələlərin aydınlaşdırılması;

– Tədqiq olunan dövrdə dini münasibətlər etnoqrafik baxımdan araşdırılmış, Qızılbaşlıq ideologiyası, onun populyarlaşmasına təsir edən amillər, qızılbaş təbliğatının özəllikləri, şiəliyin hakim məzhəbə çevrilməsinin səbəbləri, onun legitimləşməsi məsələsi, qulat şiəlik, ona qarşı mübarizə, şiə üləma sinfinin formalaşması, mühacir üləma, hakim siyasi və dini elita arasındakı münasibətlər, yeni statuslu dini intellektualların diskursları, gəzərgi dərvişlik, onların rəngarəng ritual və mərasimləri, hakim zümrənin ziyarət siyasəti, yeni ziyarət məkanları və tətbiq edilən ayin elementləri, Kərbəla mərasimi, onun yeni ritual elementləri ilə zənginləşdirməsi və s. kimi məsələlər tədqiqata cəlb olunaraq azərbaycanlıların düşüncə tərzinə, dünyagörüşünə və bütövlükdə Azərbaycanın ictimai mühitinə təsir imkanları öyrənilmişdir;

– Dövrün maarif sistemi və elmi biliklərinin başlıca xüsusiyyətləri, eləcə də müxtəlif elm sahələrinin və təhsil müəssisələri şəbəkəsinin inkişafına təsir edən və onu stimullaşdıran amillər geniş

ölçüdə araşdırılmış, təhsil, elm və elmi praktik fəaliyyətin problemləri qüsurları və onların inkişafını ləngidən səbəblər aydınlaşdırılmışdır;

– Toplanmış zəngin etnoqrafik materiallar əsasında o dövrün xəttatlıq və miniatür sənətləri, eləcə də musiqi və oyun və əyləncələri tədqiqata cəlb edilərək, onların başlıca xüsusiyyətləri və inkişaf meylləri, eləcə də tətbiq olunan yeniliklər, onların forma və üslub özəllikləri kimi məsələlər araşdırılmışdır;

– Nəhayət, Azərbaycan xalqının Səfəvilər dövrü mənəvi mədəniyyəti araşdırılarkən dövrün İslami dəyərlərinin, İran və Türk mənəvi mədəniyyət məsələlərinin ortaq və fərqli cəhətləri, həmçinin qarşılıqlı təsir imkanları da ətraflı şəkildə tədqiq olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində Səfəvilər dövrü Azərbaycanının mənəvi mədəniyyət məsələlərinə dair toplanmış zəngin materiallar, gəlinmiş elmi nəticələr və ümumiləşdirilmələr bu dövrün irsinin kompleks şəkildə araşdırılmasında, eləcə də kulturologiya, folklorşünaslıq, ədəbiyyatşünaslıq, elmşünaslıq, təhsil, fəlsəfə, sənətşünaslıq və s. kimi sahələrlə məşğul olanlar üçün faydalı ola bilər. Tədqiqatın nəticəsi Azərbaycan tarixi-etnoqrafiya elminin bir çox məsələlərinin araşdırılmasına yardımçı ola bilər.

Dissertasiyanın materiallarından ali məktəblərdə Azərbaycan tarixi və etnoqrafiyasının, din tarixinin, sənətşünaslığın və s. tədrisində də faydalı bir vəsait kimi istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Tarixi Etnoqrafiya" şöbəsində müzakirədən keçib. Dissertasiya işi ilə bağlı müəllifin tədqiqatları 41 elmi nəşrdə, o cümlədən 2 monoqrafiyada, 13-ü beynəlxalq statuslu olmaqla 16 elmi konfransın materiallarında, 6-ı beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda olmaqla 23 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Tarixi Etnoqrafiya şöbəsində yerinə yetirilmişdi.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi ümumilikdə (ədəbiyyat siyahısı və ixtisarlar istisna olunmaqla) 521892 işarədən ibarətdir. Giriş 40755 işarədən, birinci fəsil 53312 işarədən, ikinci

fəsil 29908 işarədən, üçüncü fəsil 141622 işarədən, dördüncü fəsil 58526, beşinci fəsil 44207, altıncı fəsil 120185, nəticə isə 19837 işarədən ibarətdir işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır

Dissertasiyanın birinci fəsli **"Bayramlar"** adlanır. Bu fəsildə dünyəvi və dini bayramların Səfəvi cəmiyyətinin həyatında oynadığı rol, onların keçirilmə özəllikləri, spesifik xüsusiyyətləri, tətbiq olunan yeniliklər, bu bayramlara dair bir sıra ayin və adətlər və s. kimi məsələlər araşdırmaya cəlb edilmişdir.

**"Novruz bayramı"** adlanan birinci yarımfəsildə dövrün mənbələri əsasında Novruz bayramı ilə bağlı müxtəlif xarakterli adətlər, mərasimlər, onların keçirilmə özəllikləri, bayrama dinin təsiri, onu şiəliyin ehkamları ilə bağlamaq cəhdləri və s. kimi bir çox məsələlər tədqiq edilir. Tədqiqat işində qeyd olunur ki, İslam dininin dünyəvi bayramlara mənfi münasibəti Novruz bayramına da müəyyən təsirlər göstərsə də, bu bayram Səfəvilərin zamanında geniş xalq kütlələrinin də iştirak etdiyi, kütləvi səhnələrin yer aldığı, sosial durumundan asılı olmayaraq hamının birgə şənlənə bildiyi, karnaval tipli az təsadüf olunan xalq bayramı statusunu qoruyub saxlaya bilmişdi. Səfəvilər dövründə bayramı səciyyələndirən mühüm cəhətlərdən biri də, bu bayramın rəsmi dövlət tədbirləri sırasına daxil edilməsi ilə bağlı idi. Bu amil Novruz bayramının əhəmiyyətini bir xeyli artıraraq, onun kütləviləşməsində böyük rol oynamışdı.

Araşdırmalar zamanı müəyyənləşdirilmişdir ki, Novruz bayramının Səfəvilər dövründə də əvvəllər icra olunan təzə paltar geyinmək, tonqal yandırmaq, tonqalın və suyun üstündən tullanmaq, su sıçratmaq, xalq gəzintilərinin təşkil olunması, qovurğa qovurmaq, yumurta boyamaq, ev-eşiyi təmizləmək, səməni böyütmək, plov,

şirniyyat bişirmək, hədiyyələşmə, dilək tutub qapı pusmaq, əzizlərin qəbirlərini ziyarət etmək və s. kimi bir çox adət və mərasimləri öz varlığını qoruyub saxlaya bilmişdir.

Novruz bayramı şənliklərinin mühüm elementlərindən biri də bayram günləri müxtəlif cür oyun və əyləncələrin keçirilməsi ilə bağlı idi. Novruz şənlikləri zamanı Səfəvi hökmdarları və bölgə hakimləri şəhər meydanlarında əyləncə xarakterli müxtəlif tamaşalar və oyunlar təşkil edər və bəzən onların özü də burada keçirilən oyun-əyləncələrin iştirakçılarına çevrilərdilər. Səfəvilər dövründə Novruz günləri şəhər meydanlarında, çövkən, qəpəq, öküz, xoruz, qoç döyüşdürmək, güləş, kəndirbazlıq, atəşfəşanlıq tamaşaları və s. kimi meydan tamaşa və oyunlarının keçirilməsi daha çox yayılmışdı.

Diqqət çəkən məsələlərdən biri də bəhs etdiyimiz dövrdə bayramın bir sıra yeni adət və mərasimlərlə zənginləşməsi ilə bağlıdır. Nümunə kimi bu dövrdən etibarən Novruz bayramı günlərində həyata keçirilən “yumurta döyüşdürmə” adlanan oyun və əyləncənin Novruz adətləri sırasına daxil olmasını göstərə bilərik. Türkiyəli araşdırıcı Azimi Hekime qeyd edir ki, yumurta toqquşdurmaq (döyüşdürmək) I Şah Abbas dövründən qalmışdır. O, J.Şardenə istinad edərək bildirir ki, “yumurta döyüşdürmək” Şah Abbasın ən sevdiyi oyunlardan biri olub. Novruz bayramı zamanı İsfahan şəhərini çilçıraqla bəzəmək əmri verən şah, özü şəhər gəzintisinə çıxar və dükanların qarşısında toplaşan gənclərlə yumurta döyüşdürərmiş və əgər onun özü uduzardısa o gəncə böyük bir hədiyyə bağışlayarrmış[96].

Fəslin **“Qurban bayramı”** adlanan ikinci yarımfəslində Qurban bayramının dini bayram kimi özəlliyi, onun qeyd olunma xüsusiyyətləri, Səfəvilər dövrü insanlarının həyatında oynadığı rol, onunla bağlı rast gəlinən inanclar və s. öz əksini tapmışdır.

Qeyd edək ki, İslamda bu bayram reqlamentləşdirilərək bayramın keçiriləcəyi vaxt, kimlərin qurban kəsə bilməsi, hansı heyvanlar qurban kimi kəsilə bilər, qurban necə kəsilməlidir, qurbanlıq heyvanın əti necə bölüşdürülməlidir və s. haqqında normalar və qaydalar sistemi müəyyənləşdirilmişdir. Bu norma və

---

[96] Azimi H. Nevruz Töreni ve Azerbaycanlılar Arasında İcra Olunması // Türk Dünyası'nda Nevruz Üçüncü Uluslar Arası Bilgi Şöleni Bildirileri, (Elazığ, 18-20 Mart 1999), - Ankara: AKM Yay., - 2000, s. 71-72

qaydalar sistemi Səfəvilər hakimiyyətə gəldikdən və şiəlik hakim məzhəbə çevrildikdən sonra da, Səfəvi ölkəsində öz əvvəlki mövqelərini qoruyub saxladı və demək olar ki, bayramın keçirilməsi ilə bağlı ciddi dəyişikliklər baş vermədi. Çünki Səfəvilərin qəbul etdikləri on iki imam şiəliyi də qurban kəsməni müsəlmanın vacib əməllərindən sayır və qurban bayramını əsas dini bayramlardan biri hesab edirdi. Ona görə də Səfəvi ölkəsində Qurban bayramı şiə dindarların başlıca dini bayramlarından biri kimi qeyd edilməkdəydi. Qurban bayramı da rəsmi bayram kimi Səfəvi şahlarının fərmanları ilə qeyd edilirdi.

Dini bayram olmasına baxmayaraq bu bayramın Səfəvilərdə böyük şadyanalıqla qeyd olunmasının şahidi oluruq. Qurban bayramı zamanı dövlət səviyyəsində həm mərkəzdə, həm də bölgələrdə böyük ziyafət məclislərinin qurulması, müxtəlif xarakterli kütləvi tamaşaların və musiqi əyləncələrinin yer aldığı səhnələrin təşkil olunması dediklərimizə sübutdur. 1624-cü ildə İsfahanda olarkən Səfəvi şahının da iştirakı ilə keçirilən Qurban bayramı ilə bağlı tədbirləri izləmiş rus taciri F.Kotov bayramın bu cəhətinə diqqət yönəldərək yazırdı: *“Beləliklə, üç gün bayram edirlər. Heç nə etmir, alver etmirlər, kərənay və zurna çalır, qırmızı yumurtalar satırdılar. Birı-birinin əllərindən tutur və bir birinin əllərini öpürdülər*”[97]. Burada “Birı-birinin əllərindən tutur və bir birinin əllərini öpürdülər” deyən F.Kotov çox böyük ehtimalla məsələnin mahiyyətini dərk etməmişdir. O özü də mahiyyətinə varmadan günümüzə qədər davam edən bayram günlərində böyüklərin əllərinin öpülməsi adətinə toxunmuşdur.Fransız taciri J.Şarden də bu bayramı Səfəvilər keçirdikləri “hörmətli” və “təntənəli bayramlar” sırasına daxil edirdi. O yazır: “*İbrahim Qurbanı və Əli tərəfdarlarının din yolunda şəhid olması bayramları hörmətli bayramlardır”*[98].

Araşdırma zamanı Səfəvilər dövründə kəsilən qurbanla bağlı bir sıra inancların da olduğunun şahidi oluruq. Bunlardan biri qurbanlıq dəvədən götürülmüş tükün, yaxud qurbanlıq əti duzlayaraq

---

[97] Хождение купца Федота Котова в Персию /(Перевод Н.А. Кузнецовой). - Москва: Издательство восточной литературы, - 1958. с.88

[98] Шарден Ж. Путешествие Шардена по Закавказью в 1672-1673гг. / Ж.Шарден, -Тифлис: Скоропечатня М.Мартиросянца, - 1902, с.281

müqəddəs bir şey kimi saxlaması ilə bağlıdır. Xalq inancına görə insanlar hesab edirdilər ki, allah yolunda edilmiş qurbandan götürülmüş bir şey onlara kömək edəcək və xeyir gətirəcəkdir.

Fəslin **"Ramazan bayramı"** adlanan üçüncü yarımfəsilində Ramazan bayramının orta əsr azərbaycanlıları tərəfindən necə icra edilməsi, bayramın bir sıra özəllikləri və s. araşdırılmışdır.

Müsəlmanlar üçün ramazan ayı müqəddəs ay sayılır və ona görə də müsəlmanlığın beş əsas şərtlərindən biri sayılan orucu, bu ayda tuturlar. Orucun İslam aləmində qəti qərarlaşmış bir məzmunu vardır. Oruc tutmaq müəyyən olunmuş vaxt kəsiyində özünü dünya nemətlərindən uzaqlaşdırmaqla bərabər, ilk növbədə Allaha ibadət etməkdir. Çünki oruclug zamanı görülən işlər Allah yolunda görülən savablardan sayılır. O, İslam dünyasında ən pak, saf və təmiz ay hesab olunur.

Səfəvilər dövründə də müqəddəs ramazan ayına böyük dəyər verilmiş, oructutma ayininə isə Allahın əmri, dinin hökmü kimi baxılaraq, mömin müsəlmanların vacib əməllərindən sayılmışdır. Ramazan bayramı isə yüksək səviyyədə, təmtəraqla müxtəlıf xarakterli tədbirlərlə qeyd olunmuşdu. Məlumdur ki, Səfəvilərin əsas sosial bazasını təşkil edən və xalq İslamı inancının daşıyıcıları olan Qızılbaşlar arasında oruc tutmaq və namaz qılmaq kimi müsəlmanın vacib əməllərinə çox vaxt riayət olunmurdu. Lakin Səfəvilər hakimiyyətə gəldikdən və on iki imam şiəliyini hakim məzhəbə çevirdikdən sonra, tədricən yerli və gəlmə üləmanın da dəstəyi ilə İslami əsasların, şəriət prinsiplərinin möhkəmləndirilməsi yolunda bir sıra ciddi addımlar atıldı.

Bayramın çox mühüm özəlliklərindən biri bayram zamanı qarşılıqlı yardımlaşma və kasıblara əl tutulması amili ilə bağlıdır. Səfəvi şahları da ramazan ayı və bayram günləri böyük xeyriyyə tədbirləri həyata keçirirdilər. Bu cür xeyriyyə tədbirləri çox vaxt vergi yükünün yüngüləşdirilməsi, məhbusların bağışlanması, ehsanların, sədəqə və bəxşişlərin verilməsi və s. ilə müşahidə olunurdu. Dövrə aid mənbələrdə müxtəlif Səfəvi şahlarının hər il öz rəiyyəti üçün vergi güzəştləri etməsi və ehsanlar verməsi ilə bağlı çoxsaylı məlumatlar öz əksini tapmışdır.

Bayramın mühüm əlamətlərindən biri də bayram günü yaxınların məzarını ziyarət etmək, orada təmizlik və abadlıq işləri aparmaq, ölülərin ruhuna rəhmət diləmək və Quran oxutdurmaq, yaxud oxumaq və s. kimi işlərdən ibarət idi. Mənbələrdə Səfəvi şahlarının ramazan ayında öz doğmalarının məzarlarını ziyarət etməsi haqqında kifayət qədər məlumatlar vardır.

Ramazan ayında tutulan oruc və bayram özü ilə bərabər bir çox dini və ictimai məzmunlu ənənələrin yaranmasına da vəsilə olmuşdur. Məscidlərdə şamların yandırılması, iftar dəvətləri, ehtiyac sahiblərinə yardımların verilməsi, küçələrdə davul səsləndirib mahnılar deyərək obaşdan saxurun vaxtının xalqa çatdırılması, ramazan gecələrində oyun və əyləncələrin təşkil olunması, ramazana xas yeməklərin hazırlanması və s. kimi bir çox ənənələr bu qəbildəndir[99].

**II fəsil "Qonaqpərvərlik"** adlanır. Bu fəsildə Səfəvi dövrü Azərbaycan qonaqpərvərliyinin səciyyəvi xüsusiyyətləri araşdırmaya cəlb edilir. **"Qonağın qarşılanması"** adlanan birinci bölümündə Səfəvilərin zamanında qonağın qarşılanması ilə bağlı məsələlər ətraflı şəkildə araşdırılaraq təhlil edilir. Qonağın qarşılanması zamanı qonağa hörmətlə yanaşılması, ona gülərüz münasibət sərgilənməsi, "xoş gəldin" edilməsi və s. kimi hallar qonaqpərvərlik adətinin vacib elementlərindən sayılırdı. Səfəvilərin zamanında da azərbaycanlılar qonağa *"qonaq allahın qonağıdır", "qonaq süfrənin yaraşığıdır"*[100] prinsipindən yanaşmış, həmişə ona ehtiram bəsləmiş, onu əziz tutmuşlar.

Qonağın qarşılanması zamanı el adəti ilə saray ərkanı arasında formaca müəyyən fərqlər olsa da, qonaqqarşılama mərasimi mahiyyət etibarilə eyni prinsiplər əsasında həyata keçirilirdi. Təbii ki, hakim təbəqə tərəfindən, xüsusilə də sarayda qonağın qarşılanması prosesi qonağın tutduğu mövqedən asılı olaraq fərqli olurdu. Sadə insanların qonaq qarşılaması isə qonaq qarşılayanın imkanına bağlı olaraq reallaşdırılırdı. Ancaq, hər iki halda, hətta tamamilə yad adam olsa belə, qonaq qarşılayan ev sahibi onu xoş

---

[99] Günay H.M. Ramazan // Türkiye Diyanet Vakfı İslam ansiklopedisi: (44 ciltde) - Ankara: TDV yayınları, - c. 34: Osmanpazarı – Resuldar. – 2007. s. 434

[100] Atalar sözü / Toplayanı Ə.Hüseynzadə. - Bakı: "Yazıçı", - 1981, s. 91-92

qarşılamalı, təmənnasız olaraq yataq, yemək və s. kimi tələbatlarını ödəməli, ona canla-başla qulluq göstərməli idi, onun rahatlığı üçün əlindən gələni əsirgəməməliydi[101]. Səfəvilər sarayında "mehmandarbaşı" adlanan xüsusi vəzifə də var idi ki, onun da başlıca vəzifəsi xarici səfirlərin və hörmətli qonaqların qəbul işlərinə baxmaq, onların lazımi tələbatlarının təmin edilməsi ilə məşğul olmaq idi[102]. Səfəvilərin zamanında şahın fərmanıyla ölkəyə səfər edən hər bir kimsəyə yemək, qalmaq və günlük xərcləri ödəmək üçün mehmandari adlanan pul vəsaiti də verilirdi[103].Ümumiyyətlə, Səfəvilər dövründə elçilərin bütün məsrəflərinin Səfəvi dövləti tərəfindən ödənilməsi bir ənənə halını almışdı.

Fəslin **"Qonağın saxlanması"** adlanan ikinci bölümündə vurğulanır ki, qonaq qarşılandıqdan, ona xoş gəldin və hal-əhvaldan sonra, onun yataqla təmin edilməsi və rahatlanması üçün lazım olan işlər həyata keçirilirdi. Səfəvilər dövründə yüksək səviyyəli qonaqların saxlanması üçün bir qayda olaraq qonaq evlərindən (darül-ziyafə) istifadə olunurdu. Kasıbların evində isə otaqların biri qonaq üçün ayrılırdı və "qonaq otağı" adlandırılırdı. Qonaqların yerləşdirmə məkanlarından biri də karvansaralar idi. Orta əsrlərdə, o cümlədən Səfəvilər dövründə Azərbaycanda qonaqların qalma məkanlarından biri də sufilərə aid xanəgah (başqa adlarla zaviyə, ribat, təkiyə və s.) adlanan tikililər idi. Bu tikililər sufilərin yığışdığı, daimi yaşadığı, müridlərə təhsil verilən, müsafirlərin qəbul edildiyi xüsusi məkanlar idi[104]. Müsafirlərin qonaq edilməsi ilə bağlı olaraq çox vaxt xanəgah komplekslərində ayrıca karvansaralar da inşa olunurdu. Xanəgahlarda müsafirlər adətən günortaya kimi qəbul edilirdilər. Onlar buraya daxil olandan sonra "*... iki rükət namaz qılır,*

---

[101] Bünyadova Ş.T. Azərbaycan qonaqpərvərliyi / Ş.T.Bünyadova. – Bakı: "Elm", - 2005. s. 37

[102] Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti / O.Əfəndiyev. – Bakı: "Şərq-Qərb", - 2007. s. 316

[103] Mathee R. Prostitutes, Courtesans and Dancing: Women Entertainers in Safavid Iran // Iran and Beyond, ed. R.Matthee, B.Baron. - Costa Mesa: Mazda Publishers, - 2000. p. 161

[104] Əhməd Ə.S. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti / Ə.S.Əhməd. - Bakı: Elm, - 2012, s. 104

*yemək zamanı bütün azuqələrini süfrəyə qoyub, xanəgah sakinləri ilə bölüşürdülər"*[105].

Qonağın evə dəvət olunması, onun şərəfinə ziyafət verilməsi və bir çox hallarda yataqla təmin edilməsi qonaqla qonaqqarşılayan arasında isti ortamın yaradılmasında mühüm rol oynayırdı. İnsanlar evinin ən yaxşı mənzillərindən birini, "qonaq otağı" adlandırdığı mənzili, əşyaları ilə birlikdə qonaq üçün ayırırdı. Ümumiyyətlə orta əsrlərdə, o cümlədən Səfəvilər dövründə qonaq qəbul edən kəslərin qonağı öz evlərində yerləşdirməsi, onun rahatlığı üçün hərtərəfli qayğılanmaq vacib əməllərdən sayılırdı.

Fəslin **"Qonağın yola salınması"** adlı üçüncü bölümündə qonaqpərvərlik adətinin vacib elementlərindən biri olan qonağın hədiyyələrlə yola salınmasından bəhs edilir. Hədiyyələr əksər hallarda ziyafət məclisinin sonunda ev sahibi tərəfindən qonağa təqdim edilirdi. Hədiyyələr forma və xarakterinə görə çox müxtəlif ola bilərdi. Bu ləl-cavahirat kimi qiymətli əşyalardan tutmuş, ekzotik və adi heyvanlarda daxil olmaqla, sadə məişət əşyaları, silahlar və s. ola bilərdi[106]. Bəzən qonaq da qarşılıqlı olaraq ev sahibinə hədiyyələr təqdim edirdi. Səfəvilərin zamanında da qonaq qəbul edən şəxs qonağın təhlükəsizliyi üçün məsuliyyət daşıyırdı. Belə ki, qonaq kimi sığınanın (hətta təhlükələr olsa belə) müdafiəsi, təslim edilməməsi qonaq sahibi üçün vacib əməl sayılır və şərəf məsələsi hesab olunurdu. Başqası tərəfindən qonağın alçaldılması, təhqir olunması, ona pis münasibətin sərgilənməsi yolverilməz idi və bu qonaq sahibinə olan münasibət kimi dəyərləndirilirdi. Qonağın malının mühafizəsinə təminat da ev sahibinə aid olan bir məsələ idi. Qonaq evi tərk etdikdən, yəni yola salındıqdan sonrakı vəziyyət ev sahibinin səlahiyyətindən kənar sayılırdı. Amma qonağın evi tərk etdikdə müəyyən bir xahişi və ya arzusu olardısa, təbii ki, onun istəyini yerinə yetirmək üçün ev sahibi əlindən gələni əsirgəməz və lazım gələrsə, qonağını müəyyən yerədək ötürməyi və ya lazımi yerə

---

[105] Əhməd Ə.S. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti / Ə.S.Əhməd. - Bakı: Elm, - 2012, s.104

[106] Əhməd Ə.S.Səfəvilər dövründə Azərbaycanda qonaqpərvərlik adəti // Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası. – 2016. № 2, s. 163

aparmağı özünə borc bilərdi[107]. E.Çələbi Təbrizdə olarkən qonağa sayğı, onun alçaldılmaması ilə bağlı maraqlı bir hadisəni qələmə almışdır. O qeyd edir ki, Təbriz xanı Kəlbəli xanın qonağı olarkən, Xan sünnilərə qarşı söyüşü qadağan etmiş və bunu şəhər əhlinə carçılar vasitəsi ilə bəyan etmişdi[108].

**"Din və dini münasibətlər"** adlanan üçüncü fəsildə Səfəviyyə sufi təriqətinin özəllikləri, onun siyasiləşmə yönündəki fəaliyyətləri, qızılbaşlıq ideologiyası, Səfəvilərin nədən şiəliyə doğru yön dəyişmələri, şiəliyin hakim məzhəb kimi qəbul olunması, onun ölkə ərazisində yağınlaşması və legitimləşməsi, şiə üləma qıtlığının aradan qaldırması yönündə atılan addımlar, ifrat görüşlərə və təlimlərə qarşı mübarizə, Səfəvilərin ziyarət siyasəti, şiəliklə bağlı müxtəlif hadisələrin simvollaşdırılması və onlarla əlaqədar düzənlənən tədbirlərin kütləviləşdirilməsi, qeyri-müsəlmanlara münasibət və onların dürmü və s. kimi bir çox məsələlər dövrün mənbələri əsasında araşdırmaya cəlb olunmuşdur.

Fəslin **"Səfəvilərin şiəliyin hakim məzhəbə çevrilməsi və legitimləşməsi ilə bağlı fəaliyyətləri və ifrat meyllərə qarşı mübarizə"** adlı birinci bölümündə Səfəvilər dövründə şiəliyin yenidən dirçəlməsi və bütün ölkə ərazisində hakim məzhəb halına gətirməsi Səfəvilərin istər bir təriqət, istərsə də yaratdıqları bir dövlət kimi apardıqları ictimai-siyasi fəaliyyətin yekunlarından biri olduğu vurğulanır.

Səfəvi dövləti yarandıqdan sonra dövlət başçısı kimi Şah İsmayılın ilk addımlarından biri, dini sahədə həyata keçirmək istədiyi islahatlarla bağlı olur. Şah İsmayıl əhalisinin böyük əksəriyyətini sünnilərin təşkil etdiyi bir coğrafiyada qorxmadan, çəkinmədən məzhəb dəyişikliyinə gedərək, on iki imam şiəliyini rəsmi məzhəb elan edir və onu bölgənin hakim məzhəbinə çevirir. Şah İsmayılın on iki imam şiəliyini rəsmən hakim məzhəb elan etməsindən sonra onun qarşısında şiəliyin ictimailəşdirməsi və onu daha geniş kütlələrin

---

107 Bünyadova Ş.T. "Orta əsr Azərbaycan ailəsi" / Ş.T.Bünyadova. – Bakı: "Elm" nəşriyyatı, - 2012, s. 300

108 Küpeli Ö. Evliya Çelebinin ilk İran seyahatı güzargahı ve kalelerle ilişkin bilgiler // Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, - 2011. XI/2, s. 75

mənimsəməsi, eləcə də ictimai fikirdə şiəliyin özünü ifadə edə bilməsi[109] kimi mühüm vəzifələrin həyata keçirilməsi dayanırdı. Səfəvilərin bu istiqamətdə atdığı ilk addımlardan biri imamların rəmzləşdirilməsi ilə bağlı oldu. On iki imamın adına xütbə oxunması bu sahədə atılan ilk addımlardan biri idi. Eyni zamanda azan və iqamədə də dəyişikliklər edildi.

Səfəvilərin şiələşdirmə siyasətinin ən mühüm istiqamətlərindən biri də ölkə əhalisinin əksəriyyətini təşkil etdiyi sünnilərin zorla şiələşdirilməsi ilə bağlı idi. Qızılbaşlar bu işin gerçəkləşdirilməsi üçün dövlətin bütün imkanlarını səfərbər etmiş və bundan faydalanmaqla İslam tarixində nümunəsi görülməmiş geniş məzhəbdəyişdirmə fəaliyyəti həyata keçirə bilmişdilər.

Şiəliklə bağlı kadr qıtlığı və şiə dini ədəbiyyatının çatışmazlığı ilə üzləşən Səfəvi dövlətinin ilk addımlarından biri yeni şiə üləma sinfinin formalaşdırılması ilə bağlı idi. Lakin şiəliyi yenicə dövlət məzhəbi və inancı kimi qəbul edən Səfəvi dövlətinin sünnilərin üstünlük təşkil etdiyi bir məkanda ehtiyac duyulan kadrları tapması qeyri-mümkün idi, yetişdirmək isə böyük zaman tələb edirdi. Belə olduqda Şah İsmayıl və onun xəlifələri bu boşluğu aradan qaldırmaq üçün həmin zamanlar şiə mədəniyyət mərkəzləri sayılan Cənubi Livandan (Cəbəl Amil), Bəhreyndən, Nəcəfdən və başqa yerlərdən şiə üləmaları ölkəyə dəvət edərək onlara fəaliyyətləri üçün hər cür şərait yaratdılar. Dövrün mənbələrinə əsasən söyləyə bilərik ki, Səfəvilərin hakimiyyəti dövründə yuxarıda adlarını sadaladığımız şiə mərkəzlərindən yüzlərlə şiə bilim adamı Səfəvi ölkəsinə gəlmiş və burada öz fəaliyyətlərini davam etdirmişlər. Mühacir üləma kimi tarixə düşmüş bu şiə bilim adamları tezliklə şiə ənənələrini və ideyalarını yaranmaqda olan şiə dövlətinin yeni strukturlarına uyğun tərzdə şərh etmək, öyrətmək, təbliğatını aparmaq və şiə təlimini inkişaf etdirmək kimi vəzifələri həyata keçirməyə başladılar.

Səfəvi şahlarının dini siyasətində önəmli istiqamətlərdən biri də ifrat görüşlərə (gulüv və ya qulat) qarşı aparılan mübarizə ilə bağlı idi. Bu cür görüşlər həm dövlətin əsaslarının möhkəmlənməsinə, həm də İsnaəşəriyyə şiəliyinin oturuşmasına və yayğınlaşmasına ciddi surətdə

---

[109] Ağaoğlu Ə. İran və inqilabı / Ə.Ağaoğlu. – Bakı: Azərnəşr, - 2009. s.47

mane olurdu. Xatırladaq ki, ifrat görüşlərin əsas daşıyıcıları öz əski inanclarının bir çox cəhətlərini qoruyub saxlamış Qızılbaş türkmən kütlələri idi. Güclü mərkəzləşdirilmiş dövlətin yaradılması Səfəvilərin dayaqlarından hesab edilən aşirət yapısına malik konqar köçəri dediyimiz Qızılbaş türkmənlərinin yaşam tərzlərinin və dini-mədəni özəlliklərinin dəyişilməsini tələb edirdi. Çünki dövlətçilik prinsipləri onun mövcudluğu üçün təhlükə yaradacaq görüşləri və onu təmsil edən gücü qəbul edə bilməzdi. Bu mənada Səfəvi iqtidarının və yeni yaranmış dini elitanın mənafeləri qulüvvün aradan qaldırılmasını vacib edirdi. Qeyd edək ki, ifrat meyllərə qarşı mübarizədə I Şah Abbasın mərkəzləzdirilmiş dövlətin gücləndirilməsi ilə bağlı apardığı islahatların önəmli rolu olmuşdur.

Dissertasiyada üzərində dayandığımız məsələlərdən biri də Səfəvi iqtidarının və üləma sinfinin təsəvvüfə qarşı apardığı mübarizə ilə bağlıdır. Səfəvi dövlətinin mövcud olduğu orta əsrlərin dövlətçilik ənənələri, eləcə də güclü mərkəzi dövlətin formalaşması prosesi, onun iradəsinə tabe olmayan alternativ təsisatları, fəaliyyətləri və düşüncələri qəbul etmirdi. Dövrün sufi təriqətləri də bu baxımdan Səfəvi dövlətinə bir alternativlik təşkil edirdi. Sufiliyin təriqət ədəb-ərkanı, xüsusilə də mürşid mürid bağlılığı, onların xalq arasındakı nüfuzu, təkkələrin nisbi müstəqillikləri, rəsmi dini ideologiyaya uyğun gəlməyən aşırı ideyaları və s. o zamanın avtoritar xarakter daşıyan siyasi təsisatlarının məram və məqsədləri ilə üst-üstə düşmürdü. Dövlət qurulduqdan sonra Səfəvi düzənində, yeni aktyorların (şiə üləma sinfi, "tacikiyyə" adlanan məmur zümrəsi, qeyri-dini və etnik qruplardan təşkil edilmiş qulamlar və s.) ortaya çıxışı da, Qızılbaş sufilərin fəaliyyət dairəsinin daralmasına və hakimiyyətdən uzaqlaşmasına səbəb olan faktorlardandır. Səfəvi hakimiyyətinin və üləma sinfinin ciddi təzyiqləri nəticəsində Kazeruniyyə, Xəlvətiyyə, Nəqşibəndiyyə, Mövləviyyə və s. kimi sünni təriqətlər ciddi təzyiqlərə və represiv hərəkətlərə məruz qalaraq, ölkə ərazisində fəaliyyətlərini dayandırmaq zorunda qaldılar. Sünni təriqətlərdən fərqli olaraq, Kübrəviyyə təriqətinin qolları sayılan və sonradan şiələşmiş Nurbəxşiyyə və Zəhəbiyyə təriqətləri, eləcə də şiə Neymətullahiyyə, Qələndərilik və onun çətiri altında olan müxtəlif marginal dərviş qrupları ilkin dövrlərdə Qızılbaş

hakimiyyəti ilə isti münasibətlər qura bilmişdilər. Lakin sonralar, xüsusilə də üləma sinfinin hakimiyyətdə gücləndiyi vaxtlarda, ciddi təzyiqləri nəticəsində onların da fəaliyyətləri kəskin məhdudlaşdırıldı və bir çoxları ölkə ərazisini tərk etmək məcburiyyətində qaldı.

Fəslin **"Ziyarət və ziyarətgahlar"** adlanan ikinci bölümündə Səfəvilərin zamanında ziyarət və ziyarətgahlar, eləcə də hakim dini və siyasi elitanın apardığı ziyarət siyasəti etnoqrafik baxımdan tədqiq edilir.

Böyük şiələşdirmə siyasəti həyata keçirən Səfəvilər şiə müqəddəslərinin qəbirlərinin ziyarətgahlara çevrilməsində maraqlı idilər və hər vəchlə bunu stimullaşdırırdılar. Çünki şiə müqəddəsləri ilə bağlı məkanların və ziyarətgahların olması bir məzhəb kimi şiəliyi zənginləşdirir və onu güclü edirdi. Şiə müqəddəslərini andıran, onların adları ilə bağlı müxtəlifxarakterli simvolların, o cümlədən müqəddəs yerlərin, ziyarətgahların olması şiəliyin təbliğatında, möhkəmlənməsində və daha geniş ərazilərə yayılmasında əhəmiyyətli rol oynayırdı. Şiə ziyarət məkanlarının cəzbediciliyinin və populyarlığının artırılması, həm də şiə müqəddəslərinə olan hörmətin və ehtiramın yüksəldilməsinə xidmət edirdi. Səfəvi elitası üçün çox vacib idi ki, şiələrin ayrıca müqəddəs ziyarətgah məkanları olsun. Onlar bu məqsədlə Məşhəd, Qum və İraq şəhərlərindəki Əhli-beyt türbələrini özününküləşdirməyə çalışırdılar. Səfəvilər Kərbəla və Məşhəd kimi ziyarətgahlara üstün status verməklə onları Kəbəyə edilən həcc ziyarətləri ilə eyniləşdirməyə və haradasa əvəzləməyə başladılar. İndi Kərbəla və Məşhəddəki imamların qəbirlərini ziyarət edən dindarlar "Kərbəlayi", "Məşədi" kimi dini (həcc) titullar daşıyırdılar.

Səfəvilərin ziyarət dünyagörüşünün səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, onlar xalq dindarlığının ziyarət ənənələri ilə İslamın ziyarət ənənələrini sintez edərək fərqli bir ziyarət düşüncəsi ortaya qoya bildilər. Bu yeni düşüncə müxtəlif xarakterli (ocaq, pir, ziyarətgah və s.) çoxlu ziyarət məkanlarının yaranmasında və tirajlanmasında (imamzadələrin timsalında) özünü göstərdi. Bu yeni düşüncə ölümündən əsrlərcə keçməsinə baxmayaraq xalq düşüncəsində yaşayan, hörmətlə anılan və bir azda mifikləşdirlən, əfsanələşdirilən şəxslərin məzar-türbələrini müqəddəs ziyarət

məkanına çevrilməsinə və bu ənənənin yayğınlaşmasına kömək edən bir düşüncə idi. İnsanların kəramət və fəzilətinə inandıqları övliya və vəlilərin məzarlarının və yaşadıqları məkanların (əksər hallarda onlar yaşadıqları məkanlarda - xanəgah, zaviyə, təkkə və s. adlanan yerlərdə dəfn olunurdular) ziyarət məkanlarına çevrilməsi ənənəsi də bu dövrdə daha da yayğınlaşmışdı. Tədqiqat işində, həmçinin ziyarət mərasimləri, onların keçirilmə qaydaları, eləcə də Səfəvi dövründə ziyarətgahlara çevrilən bir çox məkanların xarakterik xüsusiyyətləri haqqında məlumatlar yer tutur.

Fəslin **"Məhərrəmlik mərasimi"** adlanan üçüncü bölümündə isə müsəlmanların yaddaşında faciəvi və matəm hadisəsi kimi qalan Kərbəla müsibətinə dair məsələlər araşdırmaya cəlb olunur. Səfəvilər hakimiyyətə gəldikdən və şiəlik hakim məzhəbə çevirdikdən sonra Kərbəla hadisəsi ilə bağlı tədbirlər yenidən dövlət səviyyəsində, geniş dindar kütləsinin iştirakı ilə qeyd olunmağa başladı. Kərbəla hadisəsi Səfəvilərin şiəliyi yayğınlaşdırmaq və ictimailəşdirmək, eləcə də sünni dünyagörüşü neytrallaşdırmaq, ona qarşı mübarizə aparmaqla bağlı apardıqları siyasətində önəmli rıçaqlardan biri idi. Onlar mərasimə aid ritualları təkmilləşdirərək, onu daha sistemli və insanların hiss və duyğularına daha effektiv təsir göstərə biləcək hala gətirdilər. Səfəvilər bu hadisə ilə bağlı təziyə mərasimlərinin keçirilməsini hər vəchlə stimullaşdırır və daha geniş ərazilərdə sərgilənməsinə səy göstərirdilər. Bunun üçün mərasimlər dövlət səviyyəsində təşkil edilirdi. Səfəvi şahları da daxil olmaqla ölkənin hakim zümrəsi bu tədbirlərə qatılırdı. Mərasim tədbirlərinin bölgələrdə də keçrilməsinə xüsusi diqqət yetirilirdi.

Səfəvilər dövründə Kərbəla müsibəti ilə bağlı düzənlənən mərasimlər bir sıra ritual elementləri ilə daha da zənginləşdi. Mərasimin təşkil edildiyi məkanda hərəkət edən dəstələrdən birinin (zəncirzənlər dəstəsi) zəncirlərlə bədənlərinə döyərək özlərinə əziyyət vermələri, aşura günü qılıncla baş yarmaq və yaxud da iti ülgüc və ya xəncərlə alnı çərtmək yolu ilə qan çıxarmaq, axıtmaq (qan axıtma ayini), ələm gəzdirmək ayini,dini meydan tamaşalarının formalarından biri kimi şəbih tamaşaları və s. bu qəbildəndir.

Dissertasiya işində bəzi zərərli təmayüllərin, ayin və adətlərin məhərrəmlik tədbirlərində tətbiqi, Səfəvilər dövründən etibarən

tətbiq edilməsi də vurğulanır. Səfəvi siyasilərinin və şiə üləmasının Hz. Hüseynin şəhadəti üçün nə qədər ağlanırsa, bədənə əziyyət və iztirab verilirsə o qədərdə savab qazanılacaq düşüncəsi, 40 gün ərzində ölkənin bütünlüklə matəm abı-havasına köklənməsi və s. bu kimi bir çox hallar, Səfəvilərin hakim məzhəbə çevirdikləri şiəliyin bəzi dairələr tərəfindən *"göz yaşı və nifrinlər dini kimi"* qiymətləndirilməsinə və *"qəhr dini"*[110] kimi epitetlərlə anılmasına gətirib çıxarması qeyd olunur.

Fəslin **"Qeyri-müsəlmanlar və onlara münasibət"** adlanan dördüncü bölümündə Səfəvi dövlətinin ərazisində yaşayan qeyri-müsəlmanların durumu və onlara qarşı sərgilənən münasibət təhlil edilir.

Dissertasiya işində aparılmış təhlillər əsasında belə bir qənaətə gəlinir ki, Səfəvilərin qeyri-müsəlmanlara münasibəti dözümlü xarakter daşımışdır. Orta əsrlərdə xristian dünyasının İslama qarşı mənfi münasibət sərgiləməsinə baxmayaraq, dövrə aid bir çox xristian mənbələrində Səfəvi ərazilərində xristianlara qarşı dözümlü münasibətdən geniş ölçüdə bəhs edilir. Xristian təbəələrin haqq və hüquqlarını müdafiəsi ilə bağlı zamanımıza qədər gəlib çatan çoxsaylı şah fərmanları da dözümlü münasibətin olmasından xəbər verir.

Bu bölümdə, eyni zamanda Səfəvi hakim siyasi və dini elitasının, eləcə də Səfəvi cəmiyyətinin qeyri-müsəlmanlara qarşı sərgilədiyi tolerant münasibətin səbəbləri geniş ölçüdə araşdırmaya cəlb edilir. Qeyd olunur ki, Səfəvilərin dövründə başqa dinlərin nümayəndələri, dini icma olaraq nisbi müstəqilliklərini qoruyub saxlaya bilmiş və icma daxilində bir sıra məsələlərin həlli onların öz inhisarında olmuşdur. Onlar, xüsusilə də ermənilər, gürcülər və yəhudilər ölkənin ictimai-siyasi həyatına inteqrasiya olunaraq, iqtisadi və siyasi sahədə mühüm mövqelər əldə edə bilmişdilər.

Dövrün dini xüsusiyyətlərindən biri də zorla dinləri dəyişənlərlə bərabər, xeyli sayda qeyri müsəlmanın könüllü olaraq İslamı qəbul etməsi amili ilə bağlıdır. Bu işdə Səfəvi hakimiyyətinin stimullaşdırıcı addımları ilə yanaşı, iqtisadi çıxarlar, dolanışıq imkanları, mənsəb

---

[110] Şeriatî A. Şehadet / A. Şeriati, çev. M. Şayir, - Ankara: FECR yayınevi, - 1995, s.48

sahibi olmaq, ictimai-siyasi həyatda müəyyən mövqe tutmaq və s. kimi hallar da mühüm rol oynamışdı. Ölkəyə xeyli miqdarda missioner gəlsə də, onların müsəlmanlar arasında təbliğat aparması qadağan idi. Dinini dəyişdirib müsəlmanlığı qəbul edənlərin reneqatlığı da ağır cəzalandırılırdı. Dinini dəyişdirən müsəlmanlara isə nadir hallarda rast gəlinirdi. Müsəlmanların xəstə uşaqlarını müalicə üçün xristian missionerlərin yanına aparmasına və uşağı sağ qalmayan ailələrdə yeni doğulan uşağa xristian adının qoyulması ənənəsi mövcud idi.

Dördüncü fəsil **"Təhsil və Elm" adlanır.** Bu fəsildə Səfəvilər dövrü təhsilin müxtəlif formalarının mövcudluğu, təlim tərbiyə prosesinin xüsusiyyətləri, onun elm və mədəniyyətin inkişafına təsiri, elmi biliklərin inkişaf meylləri və problemləri, ictimai-təsərrüfat həyatına elmi yeniliklərin tətbiq dərəcəsi və s. kimi bir çox məsələlər tarixi etnoqrafik araşdırmaya cəlb edilir.

Fəslin **"Təhsil"** bölümündə Səfəvi dövrünün maarif sistemi, onun özəllikləri, təhsilin çoxpilləli xarakteri, tədris prosesi və onun xüsusiyyətləri, bütövlükdə təhsil sisteminin problemləri və digər məsələlər tədqiq edilir.

Səfəvilər dövründə əvvəlki təhsil ənənələri davam etməklə yanaşı, güclü mərkəzləşdirilmiş dövlətin yaradılması və ölkədə nisbi sabitliyin yaranması ilə bağlı olaraq yeni-yeni təhsil müəssisələri yaranmağa başladı. Hakim elitanın təhsilə müsbət münasibəti, elm və incəsənəti himayə etməsi, yeni şiə üləmanın yetişdirlməsi və şiəliyin ideya əsaslarının zənginləşməsinə duyulan ehtiyac, güclü və qüdrətli Səfəvi dövlətinin savadlı məmur və hərbi bilikli kadrlara olan ehtiyacı və bir çox digər faktorlar ölkədə müxtəlif səviyyəli təhsil verən müəssisələr şəbəkəsinin yaradılmasını və inkişafını stimullaşdırırdı.

Səfəvilər dövründəki təhsil qurumlarını xarakterik xüsusiyyətlərinə görə bir neçə qrupa bölmək olar. Bunlardan birincisinə, zamanı və məkanı bəlli, konkret hədəfləri və məqsədləri olan, eləcə də dövlət inzibati orqanlarının nəzarət altında fəaliyyət göstərən rəsmi təhsil müəssisələri aiddir. Bunlara misal olaraq başda mədrəsələr olmaqla məhəllə, saray, divan və müxtəlif xarakterli hərbi məktəbləri nümunə göstərə bilərik. Digər bir təhsil qrupuna isə camilər, məscidlər, təkkə, xanəgah, əxi təşkilatları, kitabxanalar və

kitab mağazaları, üləma, alim, dövlət məmurlarının ev və sarayları kimi məkanlarda sərbəst surətdə həyata keçirilən təhsil qurumları aid idi. Bundan başqa Səfəvi ərazisində yaşayan dini azlıqlara və missioner təşkilatlara aid, özünəməxsus spesifik xüsusiyyətləri olan təhsil qurumları da fəaliyyət göstərirdi.

Ölkə ərazisində təhsil ikipilləli xarakter daşıyırdı. Birinci mərhələ ibtidai təhsil verirdi. Hələ Abbasilər dövründə İslam şərqində küttab adı ilə yaranan ibtidai təhsil müəssisələri Səlcuqlar, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə məhəllə məktəbləri kimi tanınırdı. Bu cür məktəblər "məktəbi ibtidaiyə" adı ilə də tanınırdı. Bu məktəblərdə şagirdlər oxuma və yazma kimi vərdişlərlə yiyələnsə də başlıca məqsəd Quranın öyrənilməsi və dini biliklərin əldə edilməsinə xidmət edirdi.

Tədqiqat işində XVI əsrin ortalarından etibarən İslam təhsil sistemində nəqli elmlərin üstünlük qazanması, əqli elmlərə və fəlsəfəyə qarşı yaranan soyuqluq və düşmənçilik və bunun nəticəsində əqli elmlərin ikinci plana keçməsi, eləcə də təhsilin fiqh və ərəbcə öyrənmənin girovuna çevrilməsi, təhsildə əzbərçilik metodunun üstünlük təşkil etməsi, tədris edilən fənlərin və onlara dair ədəbiyyatların yenilənməsi, dəyişdirilməsi. təkmilləşdirilməsi ənənəsinin çox zəif olması, yaxud yoxluğu və s. kimi Səfəvi təhsil sistemininproblemləri də təhlil edilərək araşdırılır.

Fəslin **"Elm"** adlanan ikinci bölümündə isə Səfəvilərin zamanında elmi biliklərin inkişaf xüsusiyyətləri və problemləri dövrün mənbələri əsasında tədqiq edilir.

Tədqiqat işində bölgə ölkələri arasında rəqabətin güclənməsi, davamlı olaraq irimiqyaslı hərbi kompaniyaların aparılması, təsərrüfat-mədəni həyatın müxtəlif sahələrində ki, yeniliklərə olan tələbat və s. elmin inkişafını stimullaşdıran və onun yüksəlişinə səbəb olan başlıca amillər kimi xarakterizə olunur. Səfəvi şahlarının və hakim elitanın təhsilə, elmə və sənətə müsbət münasibəti, elm və sənət adamlarını himayə etməsi də yaradıcı potensialın və elmin inkişafına müsbət təsir göstərən amil kimi qiymətləndirilir. Qeyd olunur ki, Səfəvi cəmiyyətində də savadlı, bilikli, yaradıcı insanlar cəmiyyətdə həmişə hörmətlə qarşılanır və mühüm mövqeyə malik olurdular. Bu faktı 1636-1639-cu illərdə Səfəvi ölkəsinə səfərdə

olmuş Holişteynli səfirin katibi A. Oleari də təsdiqləyir. O yazır: *“Hərçənd ki, azad elmləri oxuyanların sayı bizdəki kimi çox olmasa da bu elmlərə və bu elm sahiblərinə böyük hörmət göstərilir. Belə adamları filosof (filosuf) adlandırırlar”*[111].

Dövrün elmi bilikləri ilə bağlı təhlillər aparılırkən, əqli elmlər içərisində tibb, tarixşünaslıq, fəlsəfə, astronomiya kimi elm sahələrin daha yüksək inkişaf etdiyi qənaətinə gəlinir. Ümumiyyətlə, araşdırdığımız dövrdə hakim dini-siyasi elitanın təbiət elmləri ilə müqayisədə ilahiyyat elmlərinə və yaradıcı potensiala (xəttatlıq, miniatür sənəti, memarlıq, poeziya və s.) daha çox diqqət yetirdiyinin şahidi oluruq.

Dissertasiya işində ölkədə müxtəlif elm sahələrinin inkişafını ləngidən, ona mane ola bilən bir sıra ciddi faktorlar da araşdırılır. Bu faktorlara misal olaraq böyük nüfuz sahibi olan və ictimai-siyasi proseslərə təsir imkanları olan hakim şiə ulama sinfinin yenilikçiliyə, hər cür alternativ düşüncəyə düşmən münasibət bəsləməsini, eləcə də onların təhsil və elmlə bağlı məsələləri öz inhisarında saxlamağa cəhd göstərməsini, total şiələşdirmə siyasəti nəticəsində bir çox nüfuzlu elm adamının ölkəni tərk etməyə məcbur olmasını, Osmanlıların liderliyində böyük sünni dünyası ilə əlaqələrin, o cümlədən də İslam dünyasının məşhur elm və təhsil mərkəzləri ilə əlaqələrin qırılmasını, müsəlman dünyasında baş verən ümumi tənəzzül prosesindən qaynaqlanan təsirləri və s. göstərmək olar.

Dissertasiyanın beşinci fəsli **“Xəttatlıq və miniatür sənəti”** adlanır. Bu fəsildə Səfəvilərin zamanında xəttatlıq və miniatür sənətinin səciyyəvi xüsusiyyətləri, onların inkişafını şərtləndirən amillər, bu sahədə yaranan yeni üslublar, yeni cərəyanlar, yeni məktəblər və s. haqqında məsələlər araşdırılır.

Fəslin **“Xəttatlıq”** adlanan ilk bölümündə qeyd edilir ki, Səfəvi şahlarının sarayında ərəb qrafikası ilə kitabların üzünün köçürülməsi və bədii tərtibatlı kitab istehsalı ilə bağlı xüsusi emalatxanaların yaradılması və buraya dövrün ən istedadlı və bacarıqlı bir çox sənət sahiblərinin, o cümlədən xəttatların cəlb

---

[111] Олеарий А. Подробное описание путешествия Голштинского посольства в Москвию и Персию в 1633, 1636 и 1639 годах / А.Олеарий, Пер. с немец. П.Барсова, - Москва: Университетская типография, - 1870,- с. 814

olunması xəttatlıq sənətinin inkişafına böyük təsir göstərirdi. Hakim elita tərəfindən bu sahəyə ayrılan xüsusi diqqət və cəmiyyətdə gözəl xətlə yazılmış kitablara olan tələbatın artması (orta əsrlərin bir çox siyasiləri və intellektualları bu cür kitabları əsl xəzinə hesab etmişlər) bu sənətin inkişafını stimullaşdırmaqla yanaşı, yeni xəttatlıq üslublarının yaranmasına da səbəb oldu. Bu yeni üslublara misal olaraq dövrün tanınmış xəttatlarından biri olan Ətiq Ordubadinin icad etdiyi "tuğrayi-şahi" adlanan xətt növünü və Murtuzaqulu xan Şamlu tərəfindən "Şikəsteyi nəstəliq" adlı yeni bir xətt üslubunun yaradılmasını nümunə olaraq göstərmək olar.

Bu dövrdə xəttatlıq sənətinin sirləri ilə bağlı bir sıra traktatlar da ərsəyə gəlmişdi. Risalələrdə dövrün bir sıra rəssamları və xəttatları haqqında məlumatlarla yanaşı, xəttatlıq sənətinin qaydaları, üslubları, yazı vərdişləri, yazı yazarkən qələmi necə seçmək və qələmin hazırlanması, kitabların üzünün köçürülməsində lazım olan mürəkkəbin, boyanın və digər yazı ləvəzimatlarının hazırlanması qaydaları və s. haqqında məlumatlar öz əksini tapmışdır. Xəttatlıqla bağlı risalələrə nümunə olaraq Xəlil Təbriziyə (ö. 1536) məxsus "Kalliqrafiyanın əsasları" ("Üsul-i xətt") risaləsini, Qazi Əhməd ibn Mir Münşi (1546-1606) aid "Gülüstani hünər" (Sənət gülüstanı), yaxud "Xəttatlar və rəssamlar haqqında risalə"ni, Mahmud Çapnəvis tərəfindən "Altılıq" xətlərə aid yazdığı «Rəsmül-xətt» və digər risalələri göstərmək olar.

Dövrə aid mənbələrdə Səfəvilərin zamanında xəttatlıq sənətində ad çıxarmış Xoca Seyid Əhməd Məşhədi, Qasım Şadişah, Mövlana Əbdi Nişapuri, Mövlana Şahmahmud Zərrinqələm,, Mövlana Dost Herati, Ustad Behzadın bacısı oğlu Mövlana Rüstəm Əli, Hafiz Babacan Türbəti, Mövlana Malik Deyləmi, Mövlana Məhəmməd Əmin Əqili, Mirzə Əhməd Mirzə Ətaulla oğlu və bir çox başqaları kimi sənətkarlar, onların yaradıcılığı haqqında məlumatlara rast gəlmək mümkündür.

Fəslin **"Miniatür sənəti"** adlanan ikinci bölümündə Səfəvi dövrü miniatür sənətinin xarakterik xüsusiyyətləri, sənətdə cərəyan edən inkişaf meylləri və s. ilə bağlı məsələlər araşdırılır. Dövrün ustad miniatürçü rəssamları və onların bu gündə dünyanın məşhur muzey və qalereyalarını bəzəyən yaratdıqları sənət əsərlərinə əsasən

söyləyə bilərik ki, İslam miniatür sənətinin ən parlaq səhifələrindən birini Səfəvi dövrü miniatür sənəti təşkil edir.

Səfəvi təsviri sənət ustaları miniatür sənətkarlığına bir sıra yeniliklər gətirmişdilər. Bunlardan biri tək vərəqdə çəkilən miniatür əsərləri ilə bağlı idi. Bu cür miniatürlər müxtəlif boyalarla bəzədilmiş, bəzən isə "qara qələm" metodu ilə çəkilmiş, konkret süjeti əks etdirən ayrıca sənət əsərləri idi. Tək vərəqli miniatürlər içərisində portret rəsmləri önəmli yer tuturdu. XVI əsr Səfəvi illüstrasiyalı kitab yaradıcılığında və miniatür sənətində yaranan yeniliklərdən biri də miniatürlərin ətrafında (mətn sahələrinin ətrafında da, həmçinin) ornamentli çərçivələrin yaranması ilə bağlı idi. Belə olduqda sahə genişlənir və çərçivələr naxışlarla bəzədilirdi, burada albomların bəzədilməsi üslubundan istifadə olunurdu.

XVII əsr Səfəvi rəsm sənətinə Avropada populyar olan Barokko, Flaman, İtaliyan və s. kimi üsulların təsiri də çox güclü idi. Məs., çəkilən rəsmlərdə əksini tapan dünyəvi mövzular, dəbdəbəli yasamla bağlı detallar və göz qamaşdıran rənglər Borokko üslubundakı rəsmlərin özəlliklərindən idi. Eyni zamanda, avropalılar vasitəsilə İsfahan məktəbi bir sıra yeni mövzuları da mənimsəmişdi. Açıq-saçıq geyimli qadınlar və eşq münasibətləri ilə bağlı əvvəllər işlənilməyən mövzular məhz bu qəbildəndir.

Səfəvi miniatür rəssamlarının yaratdığı sənət əsərləri etnoqrafik lövhələrin zənginliyi baxımından fərqlənirdi. Bu əsərlərdə dövrün musiqi alətləri, geyimləri, rəqsləri, əyləncələri, məişət və təsərrüfat həyatı və s. ilə bağlı təsvirlər yer almaqdadır.

VI fəsil "**Musiqi, oyun və əyləncələr" adlanır.** Fəslin **"Musiqi"** adlanan birinci bölümündə Səfəvi dövrü musiqi mədəniyyətinin inkişaf meylləri, onların janr xüsusiyyətləri, musiqi sənətinə gətirilən yeniliklər, musiqişünaslıq, muğamlarımız, aşıq musiqisi və s. bağlı məsələlər tədqiqata cəlb olunmuşdur.

İslam dinindən qaynaqlanan bir sıra məhdudiyyətlərə baxmayaraq Səfəvilər dövründə musiqi sənət inkişaf etmiş və cəmiyyətin mədəni həyatında öz önəmli rolunu qoruyub saxlamışdır. Bunu o dövrdə ki, el şənliklərinin, bayramların, müxtəlif səviyyəli qəbulların, qarşılanmaların, rəsmi keçidlərin, ziyafət məclislərin, toyların və s. musiqinin müşayiəti ilə keçirilməsi də sübut edir.

Səfəvilərin zamanında musiqi sənətinin yeniləşməsi prosesi və yeni elementlərlə zənginləşməsi prosesi davam etmişdir. Bu dövrdə muğamlar onların avazları, şöbələri, guşələri və s. dəyişikliyə uğramış və yeniləri meydana gəlmişdi. Bunlara misal olaraq “Mahur Hindi” muğamını, ona daxil olan “Kabili” şöbəsini, “Bayatı Qacar” (öncə guşə (XVI əsr), sonra şöbə (XVII-XVIII əsr) və sonda dəsgaha (XIX əsr) çevrilmişdir) muğamını, “Segahi-əcəm” (XVII əsr), muğam şöbəsini, “Mirzə Hüseyn segahı”nı (XVIII əsr), «Şah Xətai» muğam şöbəsini və başqalarını göstərə bilərik.

Araşdırılan dövrdə aşıq yaradıcılığı da Azərbaycan xalqının mədəni həyatında özünəməxsus yer tutmuşdur. Səfəvilərin zamanında ozanın aşığa, qopuzun isə saza çevrilməsi prosesi başa çatmış, aşıq musiqisi şəhərin və Səfəvi aristokratiyasının həyatına daxil olmuş, onun janr xüsusiyyətləri zənginləşmiş və xeyli miqdarda yeni aşıq havaları (“Baş divani”, “Şahsevəni“, “Heydəri”, “İbrahimi”, “Sultanı”, “Cəngi Koroğlu”, “Döşəmə Koroğlu”, “Bozuğu” və s.), dastanlar («Şah İsmayıl», «Koroğlu», «Aşıq Qərib», «Abbas və Gülgəz», «Əsli və Kərəm» və s.) ərsəyə gəlmişdir.

Səfəvilər dövrü musiqisini xarakterizə edən mühüm cəhətlərdən biri də mədəniyyət mərkəzləri olan iri şəhərlərdə əsasən muğam sənəti və bununla bağlı olaraq xanəndəlik sənəti, eləcə də rəqs geniş yayılmışdı. Musiqiçi dəstələri (ansambl) tərəfindən ifa edilən bəstəkar musiqisi də şəhər mədəniyyəti üçün xarakterik idi. Hələ də yarımköçəri həyat tərzi sürən bir sıra türkmən tayfaları və kənlərdə yaşayan əhali arasında isə aşıq musiqisi və şifahi ənənələrə söykənən xalq mahnıları daha geniş yayılmışdı.

Səfəvilərin zamanında dini xarakterli musiqi inkişaf etmiş, onun janr xüsusiyyərləri zənginləşmişdir. Dini musiqi özlüyündə cami-məscid və təriqət musiqisi kimi formalara ayrılırdı. Cami-məscid formasına – tilavat (Quranın avazla oxunması), əzan, zikr, təkbir, mərsiyə, növhələr, minacat və s. aid idi. Təriqət musiqisinə isə - ilahilər, qasidə, nəfəs, mərsiyə, ayin, saz səmaları və s. aid idi.

Altıncı fəslin **“Musiqi alətləri”** adlanan ikinci yarımfəslində o zamankı musiqi alətləri və onların özəllikləri haqqında ətraflı məlumat verilir.

Səfəvi dövrü musiqi sənətinin inkişafında musiqi alətlərinin özünəməxsus yeri vardır. Bu dövrdə musiqiçi sənətkarlarımız tərəfindən yeni musiqi alətləri icad edilmiş (“şeştar” (XVII əsr), “Şeşxanə” adlı telli saz (XVII əsr), mövcud olanlardan bəziləri isə təkmilləşdirilmişdir. Orta əsrlərdə Azərbaycan musiqi alətlərini təsnif edən musiqi araşdırıcıları onları üç qola ayırırlar: simli musiqi alətləri, nəfəsli musiqi alətləri və zərb musiqi alətləri. Araşdırdığımız dövrdə Azərbaycanda istifadə olunan simli musiqi alətləri əsasən aşağıdakılardan ibarətdir: qopuz, saz, ud, rübab, tənbur, bərbət, setar, çahartar, şeştar,cəng, pandur, santur, kamança və s. Nəfəs musiqi alətlərindən isə Azərbaycanda tulum, tütək, ney, zurna, balaban, muşiqar, şeypur, gərənay, nəfir və s. geniş yayılmışdır. Səfəvilər dövründə kos (kus), cift-kös (dəbdəbə), lakkıtı, nağara, qoşanağara, dümbək, dühul, davul, sinc, şaxşax (çalpara), qaşığek (qaşığək) və s. kimi zərb musiqi alətlərindən geniş istifadə olunmuşdu.

Altıncı fəslin **“Rəqslər”** adlanan üçüncü bölümündəaraşdırılan dövrdə Azərbaycan xalq rəqslərinin xarakterik cəhətləri, janr müxtəlifliyi, onların ifa və nümayiş olunma tərzləri və s. haqqında söhbət açılmışdır.

Səfəvilərin zamanında İslam dininin mənfi münasibətinə rəğmən cəmiyyətin əyləncə həyatında rəqslər mühüm yer tuturdu. Bunu bayramlar, meydan tamaşaları, kütləvi xalq əyləncələri, eləcə də həm saray ərkanı, həm də cəmiyyətin fərqli zümrələri tərəfindən düzənlənən ziyafət məclisləri və s. zamanı musiqinin digər növləri ilə yanaşı rəqslərin də icra edilməsi sübut edir.

Şah sarayı və yerli hakimlərin iqamətgahları nəzdində rəqs truppaları olurdu ki, onların başlıca missiyası təşkil olunan ziyafət və şənlik məclislərində iştirak edərək öz rəqsləri ilə iştirakçıları əyləndirmək idi. Qeyd edək ki, əyalət hakimlərinin də şah saraydakına uyğun xidmət sistemləri, o cümlədən musiqi ilə bağlı nağaraxanaları olurdu. Fransız taciri və səyyahı J.Şarden də musiqiçi və rəqqaslardan bəhs edərkən bu barədə yazırdı: *“Şah sarayındakı xidmət sisteminə uyğun olaraq, əyalət hakimləri də eyni cür mürəkkəb qulluqçu sisteminə malik idilər. Musiqiçilər və rəqqaslar*

*da bu cür qulluqçu sisteminə daxildir"*[112]. Bu truppalardakı rəqqasları fərqləndirən başlıca xüsusiyyətlərdən biri onların professionallığı ilə bağlı idi. Onlar bu sənətin sirlərini dərindən bilir və ustalıqla rəqs etməyi bacarırdılar.

Səfəvilər dövründə dini rəqslər, o cümlədən sufilərə məxsus rəqslər də geniş yayılmışdı. Müxtəlif sufi təriqətləri və qardaşlıqları bəzi ayinlərin icrasını musiqinin müşayiəti ilə səma, yaxud səmah adlanan rəqsləri icra edərək həyata keçirirdilər. Xüsusilə də, gəzərgi dərvişlərin bir çox ayinləri rəqslərin müşayiəti ilə keçirilirdi. Gəzərgi dərviş qrupları içərisində bu baxımdan abdallar özünəməxsusluğu ilə fərqlənirdilər. Onlar xalq arasında daha çox hekayəçiliklə, çalğıçılıqla və oyunbazlıqları ilə şöhrət qazanmışdılar. Abdallar meyxanəni məscid kimi müqəddəs sayırdılar[113].

Bütövlükdə, dissertasiyada bu musiqi formalarının mahiyyəti, ifa tərzi, səslənmə məkanı, xalq arasında yayılma dərəcəsi, etnoqrafik xüsusiyyətləri ilk dəfə olaraq ətraflı araşdırılmışdır.

Altıncı fəslin **"Oyun və əyləncələr"** adlanan dördüncü bölümündə insanların həyat tərzinin tərkib hissəsi kimi oyun və əyləncələrin mahiyyətinə, xarakterinə, iştirakçıların sayına, icra tərzinə görə fərqlilikləri və s. araşdırmaya cəlb olunmuşdur.

Bəhs etdiyimiz dövrdə oyun və əyləncələr iyerarxik fərqliliyə baxmayaraq insanların, gündəlik qayğılardan uzaqlaşaraq eyni ortamda, bir araya gələrək şənlənməsinə şərait yaradan az təsadüf edilən vasitələrdən biri olmuşdu. O, xalqla hökmdar başda olmaqla saray ərkanı arasında əlaqə yaratmaq üsullarından biri olmaqla yanaşı, eyni zamanda sağlamlıq, döyüş hazırlığı, bacarıq, əqli tərbiyə, şənlənmək, əylənmək və s. kimi keyfiyyətlərin aşılanmasında da böyük rol oynamışdır.

Səfəvilər dövründə çövkən, qəpəq, cirit, cıdır və s. kimi atla oynanılan oyunlar, eləcə də güləş, qılıncoynatma, oxçuluq, kəndirbazlıq, müxtəlif heyvanların döyüşdürülməsi, nərd, şahmat və s. kimi oyunlar daha çox populyar olub, geniş yayılmış idi.

---

[112] Şardən J. Səyahətnamə / J.Şardən. - Bakı: Elm, - 1994, - s. 27

[113] Əhməd Ə.S. Səfəvilər dövründə din və dini münasibətlər / Ə.S.Əhməd. Bakı: Mütərcim, - 2019, - s. 281

Hakim təbəqə arasında atüstü oyunlar, xüsusilə də çövkən oyunu daha geniş yayılmışdı. Bu oyun Səfəvilərdə saray şənlikləri və böyük meydan tamaşaları zamanı nümayiş etdirilən əsas atüstü oyunlardan idi. Onu Səfəvilərdə populyar edən amillərdən biri Səfəvi şahları da daxil olmaqla ali məmur təbəqəsinin bu oyunda yaxından iştirak etməsi və onun saray əyləncələri sırasına daxil edilməsi ilə bağlı idi. Araşdırma apardığımız dövrdə geniş xalq kütlərinin də iştirakçısı ola bildiyi ən yayğın oyun növlərindən biri güləş idi. Azərbaycanlılar arasında ən qədim dövrlərdən populyar olan bu oyun Səfəvilər dönəmində də öz populyarlığını qoruyub saxlamış, el şənliklərinin, toyların, bayramların, saray əyləncələrinin vaz keçilməz oyun-tamaşalrından olmuşdur. Bəhs etdiyimiz dövrlərdə Azərbaycan şəhərlərində zorxanaların (pəhləvanların toplaşdığı, yarışların keçirildiyi, məşqlərin edildiyi məkan) geniş şəbəkəsinin və pəhləvan birliklərinin olması, dövrün folklor yaradıcılığında və şairlərinin əsərlərində pəhləvan obrazının hörmətlə yad edilməsi, onların xalq arasında igid, qəhrəman kimi böyük sayğıya malik olması, ali məmur təbəqəsinin onlara verdiyi önəm və s. oyunun populyarlığını təsdiq edən faktlar kimi dəyərləndirilə bilər.

Orta əsrlərdə hakimiyyətin və gücün göstəricisi hesab edilən ovçuluq Azərbaycanda Səfəvi dövlətinin yaranması ilə bir xeyli dərəcədə məşhurlaşaraq, hakim zümrənin həyat fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevrilmişdi. Bu dövrdən etibarən ovçuluğun xarakterində baş verən mühüm keyfiyyət dəyişikliklərindən biri, onun xüsusilə də yuxarı zümrənin həyatında əyləncə, mənəvi tələbatın ödənilməsi vasitəsinə çevrilməsi ilə bağlı idi. Ovçuluq, eyni zamanda özünün bəslənmə, təlim və qəhrəmanlıq göstərmə kimi ənənəvi funksiyalarını qismən də olsa qoruyub saxlamışdı.

Səfəvilər dövründə Azərbaycan ovçuları çox müxtəlif üsul və metodlardan, eləcə də ov alət və vasitələrindən istifadə etmişlər. Bəhs etdiyimiz dövrdə Azərbaycanda ən geniş yayılmış ov üsullarından biri "halqa ovu" və ya "çəmbər ovu" adlanırdı. Ovçuluqda geniş yayılmış üsullardan biri də ov quşları, ov itlərindən [tula, tazı] və leopardlardan geniş istifadə olunması ilə bağlı idi. Səfəvilər dövründə ovçuluqda öyrədilmiş ov quşlarından istifadə ənənəsi geniş yayılmışdı.

Səfəvilərin əyləncə həyatında bayramların, toyların (evlilik və sünnət mərasimləri), gəzintilərin, müxtəlif hadisələrlə bağlı (taxt-tac, səfərlər, uğur, fəth, yüksək çinli qonaqların qarşılanması, müxtəlif səviyyəli əyanların təltifi və s. ilə bağlı mərasimlər) şadlıq məclislərinin, söhbət və əylənmək məkanı kimi qəhvəxanaların, çayxanaların, meyxanələrin, hamamların və s. önəmini də qeyd etmək lazımdır.

**Nəticədə** təqdim edilən tədqiqatın yekunları ümumiləşdirilir və qeyd edilir ki, Səfəvi dövrünün mənəvi mədəniyyəti ilə bağlı məsələlərin tarixi-etnoqrafik tədqiqi, bu zaman kəsiyində xalqımızın mənəvi həyatının başlıca xüsusiyyətlərini öyrənmək, onda baş verən dəyişiklikləri və inkişaf dinamikasını izləmək baxımından önəmli yerə sahibdir. Səfəvilər dövrünün mənəvi mədəniyyət məsələlərinin araşdırılması, həm də onun sonrakı yüzilliklərdə təkamülünü müşahidə etmək və xalqımızın mənəvi həyatına təsir effektinin aydınlaşdırılması baxımından da çox əhəmiyyətlidir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapır:**

1. Orta əsrlərdə İslam dünyasında sufiliyin nüfuz qazanmasının səbəbləri haqqında. Azərbaycanşünaslığın aktual problemləri // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş III Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 2-5 may, - 2012,- s. 169-174.
2. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti / Ə.S.Əhməd. - Bakı: Elm, - 2012. - 368 s.
3. Əxi təşkilatının strukturu və peşə mərasimləri // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2012. № 1, - s. 144-153.
4. Miskin Abdal yaradıcılığında mənəvi mədəniyyət məsələləri // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 90-illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 01-04 may, - 2013, - s. 205-208.

5. Əxi sözünün etimologiyasına dair bəzi mülahizələr // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2013. № 1, - s.136-143.
6. Miskin Abdal yaradıcılığında dini məsələlər // - Bakı: AMEA Xəbərlər (tarix, fəlsəfə, hüquq), - 2013. № 1, - s.190-205.
7. Naxçıvanda yağışçağırma mərasimləri // Azərbaycan Arxeologiya və Etnoqrafiya elminin inkişafında Naxçıvan məktəbinin rolu. Elmi konfransın materialları, - Bakı: - 28-29 aprel, - 2014, - s. 113-116, (həmmüəllif)
8. Qurbani yaradıcılığında mənəvi mədəniyyət məsələləri // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları. - Bakı: - 05 – 07 may, - 2014, - s. 215-219.
9. Səfəvilər dövründə Azərbaycanda ovçuluq // - Bakı: Azərbaycan Arxeologiyası, - 2014. Cild 17, № 1, - s. 90-98.
10. Aşıq Qurbani yaradıcılığında dini məsələlər // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, - 2014. № 1, - s.181-190.
11. Bayramlar onların genezisi və əsas funksiyaları // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, - Bakı, - 05 – 07 may, - 2015, - s.278-282.
12. Роль Сефевидского братства в общественно-политической жизни Азербайджана средних веков // - Warszawa: Nova polityka wschodnia, - 2015. №1(8), - s. 139-153.
13. Ailə-məişət və mənəvi mədəniyyət məsələləri Oruc bəy Bayatın kitabında // - Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, - 2015. - №1, - s. 115-121, (həmmüəllif)
14. Orta əsrlərdə Azərbaycanda tolerant və multikultural ənənələrin formalaşmasında Azərbaycan poetik məktəbinin rolu // Ulu öndər H, Əliyev irsində multikultural və tolerant dəyərlər. Ulu öndərin anadan olmasına həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları, - Bakı, - 03 – 05 may, - 2016. - I Hissə, - s.214-219.

15. Ahiliyin yayılma alanı ve Azerbaycan // - Ankara: Türk Kültürü və Hacı Bektaş Veli Araşdırma Dergisi, - 2016. - sayı 78, - s. 159-176.
16. Səfəvilər dövründə Azərbaycanda qonaqpərvərlik adəti // -Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2016. - № 2, - s. 152-168.
17. Orta əsrlərdə Azərbaycanda multikulturalizm // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII Beynəlxalq elmi konfransın materialları, - Bakı, - 04 – 05 may, - 2017, - s.153-157.
18. İsgəndər bəy Münşi Türkmanın "Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)" adlı əsərində oyun və əyləncələrə dair məsələlər -Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri. 63-cü cild. Bakı, 2017. s.170-185.
19. İsgəndər bəy Münşi Türkmanın "Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)" adlı əsərində Novruz bayramı ilə bağlı məsələlər - Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, - 2017. - №2, - s. 120-130.
20. Азербайджанское гостеприимство в трудах европейских авторов о Сефевидском государстве // - Москва: Вестник Московского Государственного Лингвистического Университета (Общественные науки), - 2017. - Выпуск 4 (788), - с. 88-96.
21. The relationships between Ahiism and Futuwwa in Middle Ages // - Toruń: Studia Orientalne, - 2017. - nr 1 (11), - s. 179-196
22. Səfəvilərdə Türkmən papağının "tacı- heydəri" papağı ilə əvəzlənməsi // "Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar". AMEA-nın həqiqi üzvü Teymur Əmraslan oğlu Bünyadövun anadan olmasının 90 illiyinə həsr edilmiş elmi sessiyanın materialları, – Bakı, 07 fevral, - 2018, - s. 128-130.
23. Səfəvilərdə hz. Əli kultu // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX Beynəlxalq elmi konfransın materialları, - Bakı, - 03 – 04 may, - 2018, - s. 189-193.

24. Miskin Abdal və Aşıq Qurbani yaradıcılığında sufizmə dair məsələlər // - Bakı: Mütərcim, ədəbi, elmi, tərcümə jurnalı, - 2018. - № 46, - 2018, - s. 9-16.
25. Конные спортивные игры сефевидского периода. Азиатские исследования // Torun: Размышления на тему политики и демократии. Seria Bibloteka Azji Pacyfiki, -2018, - с. 159-174.
26. Правила гостеприимства в азербайджанских обрядах в восприятии европейских авторов // Torun: Размышления на тему политики и демократии. Seria Bibloteka Azji Pacyfiki, - 2018. - с. 142-158, (həmmüəllif)
27. Səfəvilər dövründə Nurbəxşiyyə təriqəti // - Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri, - 2018. - 73-cü cild, - s. 155-162.
28. Səfəvilər dövründə Neymətullahilik - Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, - 2018. - №4, - s.105-111.
29. Şiəliyin hakim ideologiyaya çevrilməsində və yayğınlaşmasında Səfəvi şeyxlərinin xarizmatik keyfiyyətlərinin rolu // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş X Beynəlxalq elmi konfransın materialları. - Bakı: - 07 may, - 2019, - s.118-121.
30. Abdallar haqqında bəzi mülahizələr // - Bakı: Lənkəran Dövlət Universiteti Elmi Xəbərlər (Humanitar Elmlər), -2019. - № 1, - s. 8-21.
31. Səfəvilər dövründə din və dini münasibətlər / Ə.S.Əhməd. - Bakı: “Mütərcim”, - 2019, - 512 s.
32. Човган в Азербайджане в эпоху Сефевидов // - Москва: Вопросы истории, - 2019. - № 5, - с. 219- 224.
33. Адам Олеарий о системе образования в период Сефевидов // VI Международный азиатский конгресс «Сила Азии. Государство, Общество, Экономика». Между Азией и Европой. Мысли о литературе и языке, - Toruń: 23-24 мая, - 2019, - с. 98-112.
34. Səfəvi dövrü aşıq yaradıcılığının bəzi xüsusiyyətləri haqqında //Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider H.Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş

XI Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 05-07 may, - 2019, - s.79-82.
35. Медресе в системе образования Сефевидов // - Київ: Вчені записки Таврійського Національного Університету імені В.І. Вернадського, Серія: Історичні науки, - 2020. - Том 31 (70), № 3, -s.117-121.
36. Səfəvi təriqətinin şiələşdirilməsində Şeyx Cünydin rolu // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2020. - № 2, - s.101-108.
37. İmamzadələr Səfəvilər dövründə meydana gələn ziyarət məkanlarından biri kimi // Filoloji elmlər inovativ tədqiqatlar kontekstində. Beynəlxalq elmi praktik onlayn konfransın materialları, - Bakı: - 24 dekabr, - 2020, - s. 151-155.
38. Азербайджанский тюркский язык в период Сефевидов // Международная научно-практическая конференция «Наука, образование, культура»: Посвященная 30-й годовщине Комратского государственного университета, Сборник статей, - Комрат: -11 февраля, - 2021, т. 2, - с. 205-209.
39. Səfəvilər zamanında Yeni Culfa // Qarabağ dünən, bu gün və sabah”20-ci elmi-əməli konfransının materialları toplusu, - Bakı: - 26 may, - 2021, - s. 180-194.
40. Политика паломничества Сефевидов // Труды международной научно-практической конференции, посвященной 30-летию независимости Республики Казахстан «Гуманитарные науки в эпоху глобализации: исследования и решения». - Шымкент: - 2021, - с. 208-211.
41. Factors influencing the formation of tolerance towards non-Muslims in the time of the Safavids // - Social Paradigm. An international journal of Social Science, - 2021. - 4(1), - p. 34-41.

Dissertasiyanın müdafiəsi 21 oktyabr 2022-ci il tarixində saat 10.00 Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti,115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.09.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 92 315 işarə

Tiraj: 100